

**Prezident İlham Əliyev: «2017-ci ildə də büdcəmiz sosialyönümlü olmalıdır»**

2



**Səhiyyə naziri Oqtay Şirəliyev Ağdaşda vətəndaşları qəbul edib**

3



**Doğuşayardım xidmətində islahatlar öz bəhrəsini verir**

8


# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

№ 19-20 (611) 31 oktyabr 2016-cı il | Qəzet 1991-ci ildən nəşr olunur | www.tibbqazeti.az


# Bakıda V Beynəlxalq Humanitar Forum keçirildi

## «Dəyirmi masa»da müasir tibbin aktual məsələləri müzakirə olundu




7

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva xəstə uşaqlara baş çəkib



9

## «Bu o demək deyil ki, dövlət xəstəxanalarında xidmət pullu olacaq»



5


ARASH MEDICAL COMPANY

Tel: (994 12) 530 15 15
530 41 67
530 41 68
Faks: (994 12) 530 44 44



www.arash.az


## Uşaq poliklinikalarında psixi sağlamlıq bölmələri yaradılıb



9

*Афоризм*

*Не получить желаемого - это иногда и есть везение.*

*Далай-Лама*

# Prezident İlham Əliyev: «2017-ci ildə də büdcəmiz sosialyönümlü olmalıdır»

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.**

Toplantını giriş nitqi ilə açan **Prezident İlham Əliyev** 2016-cı ilin dünya iqtisadiyyatı üçün çox ağır il olduğunu, neftin qiymətinin kəskin şəkildə düşməsinin neftlə zəngin ölkələrin iqtisadiyyatına mənfi təsir göstərdiyini, qlobal miqyasda siyasi və hərbi böhranın, Avropada miqrant böhranının yaşandığını, müxtəlif bölgələrdə qanlı toqquşmalar, müharibələr alovlandığını söyləyib. Dövlət başçısı belə beynəlxalq mənzərə fonunda Azərbaycanın uğurla inkişaf etdiyini deyib: «Bizim üstünlüyümüz ondan ibarətdir ki, həmişə öz yolumuzla gedirik, öz siyasətimizi aparırıq, heç kimin sözü ilə oturubdurmuruq. Ona görə bu gün Azərbaycanda inkişaf və sabitlik var».

Bu ilin ölkəmizdə mötəbər tədbirlərlə yadda qaldığını qeyd edən Azərbaycan Prezidenti çox böyük əhəmiyyət daşıyan referendumu, onun demokratik, ədalətli, tam şəffaf şəkildə keçirilməsini xüsusi vurğulayıb, ümumxalq səsverməsini «böhranlı ildə növbəti bir test, sınaq» adlandırıb: «Azərbaycan xalqının mütləq əksəriyyəti təklif olunan dəyişikliklərə öz dəstəyini verdi. Bu da əslində bizim siyasətimizə növbəti dəfə xalq tərəfindən verilən böyük dəstəkdir».

Bu il Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmləndiyini deyən dövlət başçısı bir çox beynəlxalq təşkilatların ölkəmizə dəstək nümayiş etdirdiyini xatırladıb, bunların arasında İslam Əməkdaşlıq Təşkilatını, Qoşulmama Hərəkatının Zirvə görüşünü və Avropa Parlamentini xüsusi qeyd edib. Bu ilin aprel ayında Azərbaycanın hərbi qələbəsindən sonra vasitəçilərin bir qədər fəallaşdığını söyləyib.

Prezident İlham Əliyev iqtisadi sahədə əldə edilən uğurlardan danışıb, sosial layihələrin icra edildiyini, o cümlədən 33 səhiyyə obyektinin inşa olunduğunu, təmir edildiyini bildirib.

Sonra çıxış edən **Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov** bu əhali qrupu ilə bağlı ölkəmizdə görülən işlərdən danışıb, qeyd edib ki, məcburi köçkünlər üçün salınan yeni yaşayış məntəqələrində bütün texniki və sosial infrastruktur yaradılıb, o cümlədən 58 tibb məntəqəsi tikilib.

Müşavirədə **səhiyyə naziri Oqtay Şirəliyev** çıxış edərək, ölkəmizdə əhalinin sağlamlığının qorunması sahəsində görülən işlərdən danışıb:

«Bu gün Azərbaycanı bütün dünyada demokratik, qüdrətli, öz sözünü deməyə qadir olan ölkə kimi tanıyırlar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin düşünülmüş siyasəti, möhkəm iradəsi, ölkəmizdəki ictimai-siyasi sabitlik sayəsində Vətənimiz hər sahədə inkişaf edir. İnsanların sağlamlığının qorunması, gələcək nəslin sağlam böyüməsi dövlətimizin başçısının daim diqqət mərkəzindədir və bu məsələ 2016-cı ildə də dövlət siyasətinin prioritet istiqamətlərindən biri olub.



Maliyyə böhranı dünya dövlətlərini büdcə xərclərini azaltmağa məcbur edir. Əksər ölkələr bunu məhz sosial sahələr hesabına edirlər. Azərbaycanda isə, əksinə, səhiyyənin inkişafına, maddi-texniki bazasının gücləndirilməsinə 2016-cı ildə əlavə olaraq 83 milyon manat ayrılıb. İndi həm paytaxtda, həm də ölkənin müxtəlif bölgələrində 28 tibb müəssisəsində təmir-tikinti işləri gedir.

Ənənəvi olaraq, bu il əsaslı təmir və tikintidən sonra əhalinin istifadəsinə verilən müasir səhiyyə ocaqlarının – Gəncə şəhəri 1 nömrəli Şəhər Xəstəxanasının, Ağsu və Biləsuvar mərkəzi rayon xəstəxanalarının açılışında dövlət başçısı şəxsən iştirak edib. Hazırda daha 8 rayon mərkəzi xəstəxanasının tikintisi davam etdirilir. Onlardan üçünün – Neftçala, Masallı, Zərdab xəstəxanalarının bu ilin sonunadək istifadəyə verilməsi planlaşdırılır.

On il əvvəl, cənab Prezident, Siz qarşıya belə bir məqsəd qoymuşdunuz ki, insanlar tibbi yardımı məhz yaşadığı yerdə ala bilsin, hər bir müayinə və əməliyyat üçün paytaxta gəlmək məcburiyyətindən xilas olsun. Artıq bu, reallıqdır. Qısa vaxt ərzində bir neçə xəstəxananın da tikintisi başa çatdıqdan sonra əminliklə deyə bilərik ki, Azərbaycanın hər bir bölgəsində, hər bir rayonunda əhali müasir xəstəxanalarda, müalicə-diaqnostika mərkəzlərində keyfiyyətli tibbi yardım ala bilir.

Ölkə səhiyyəsinin inkişafında, insanların sağlamlığının qorunmasında dövlət proqramları da mühüm rol oynayır. Ümumiyyətlə, bu proqramlar səhiyyənin ən ağır, həyati əhəmiyyət daşıyan problemlərinin həllinə yönəlib. Nəticə olaraq, bu gün deyə bilərik ki, dövlət tərəfindən bu proqramlara ayrılan vəsait həm minlərlə insanın müalicəsini, həm də səhiyyənin müxtəlif sahələrinin inkişafını təmin edib.

Belə ki, vaxtilə ölkəmizdəki yeganə dövlət dializ mərkəzində cəmi 431 xəstə müalicə alırdı, 800 nəfər xəstə növbə gözləyirdi. Bu gün həmin növbələr ləğv olunub. 27-si bölgələrdə olmaqla, 34 dövlət hemodializ mərkəzində 3112 xəstə dövlət hesabına müalicə alır. Mərkəzlərdən üçü məhz bu il istifadəyə verilib, daha biri də ilin sonunadək açılacaq.

Bütün dünyada geniş yayılmış şəkərli diabet xəstəliyi üzrə ölkəmizdə bir neçə il əvvəl 55 min xəstə dövlət hesabına dərman vasitələri ilə təmin olunurdu. Bu gün bu rəqəm 213 minə çatıb. Xəstəliyin vaxtında aşkarlanması, dövlətin onun müalicəsini tam öz üzərinə götürməsi nəticəsində, diabetin ağır formaları, fəsadları dəfələrlə azalıb. Nəticədə şəkərli diabetdən ölüm göstəricisi 15,8-dən 8,2-yə düşüb. Qeyd etmək lazımdır ki, təkcə şəkərli diabet xəstələri deyil, böyük maliyyə vəsaiti tələb edən hemofiliya, dağınıq skleroz, onkoloji və digər xəstələrin dərman təminatını da dövlət öz üzərinə götürüb.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə tikilib istifadəyə verilən Respublika Talassemiya Mərkəzi bu gün həmin xəstələrin müalicəsini tam həcmdə həyata keçirir, onları lazımi dərman və qan preparatları ilə təmin edir.

Artıq Azərbaycan sümük iliyi transplantasiyası əməliyyatları edən az sayda ölkələr siyahısına daxil olub. Bu mürəkkəb müalicə üsulu böyük investisiyalar, xüsusi şərait, yüksək ixtisaslı mütəxəssislər tələb edir. 35 uşağa sümük iliyi köçürülüb və ilin sonunadək daha 15 nəfərin əməliyyat olunması planlaşdırılır. Əlamətdar haldır ki, ilkin olaraq ilik transplantasiyası xarici mütəxəssislərin köməyi ilə edilirdisə, indi artıq öz mütəxəssislərimiz tərəfindən aparılır.

İrsi qan xəstəliklərinin qarşısını almaq məqsədilə nikaha daxil olanların tibbi müayinəsi də böyük əhəmiyyət daşıyır. Bu ilin 9 ayı ərzində 113 min nəfər müayinədən keçib, 3587 talassemiya daşıyıcısı aşkarlanıb. Qeyd etmək lazımdır ki, tibb müəssisələri ilə yanaşı, həmin müayinələrin böyük bir qismi insanların rahatlığı üçün «ASAN xidmət» mərkəzlərində həyata keçirilib. Bu müayinələr həm xəstəliklərin vaxtında aşkarlanmasına, həm də insanların düşünülmüş qərar qəbul etməsinə xidmət edir. Əlbəttə ki, ən vacibi irsi qan xəstəliklərinin yayılmasının qabağının alınması, sağlam körpələrin doğulmasıdır.

Yeri gəlmişkən, hazırda Azərbaycanda yeni diridoğulma meyarlarına uyğun olaraq, vaxtından xeyli tez, ekstremal az çəki ilə doğulan körpələrin də xilası istiqamətində ciddi işlər görülür. Doqquz ay ərzində 1000 qramdan az çəkili 102 körpəni xilas etmək mümkün olub.

Ölkənin epidemioloji vəziyyəti təkcə səhiyyənin deyil, həm də ümumi inkişafın göstəricilərindən biridir. Bu il region ölkələrində epidemioloji gərginliyə baxmayaraq, Azərbaycanda epidemioloji sabitlik təmin olunub. Belə ki, qış aylarında, demək olar ki, bütün qonşu ölkələrdə H1N1 virusu epidemiyası nəticəsində yüzlərlə ölüm hadisəsi qeydə alınmışdı. Azərbaycanın həmin ölkələrlə nəqliyyat əlaqələri kəsilməsə də, gömrük və sərhəd xidmətləri ilə birgə görülən xüsusi tədbirlər, ciddi nəzarət sayəsində epidemiyanın ölkəmizə keçməsinin qarşısı alındı.

Digər yoluxucu xəstəliklərlə bağlı da tam sabitlik qeydə alınıb. Əgər bir müddət əvvəl il ərzində Azərbaycanda on minlərlə qızılca, məxmərək, epidemik parotit hadisəsi baş verirdisə, bu gün həmin xəstəliklər ləğv edilib və ya eliminasiya səviyyəsinə çatdırılıb. Ümumdünya Səhiyyə Təşkilatının Avropa Regional Bürosu ölkəmizin bu nailiyyətini yüksək qiymətləndirib, bu münasibətlə ünvanladığı müraciətdə səhiyyəyə ayırdığı diqqət və qayğıya görə Azərbaycan rəhbərliyinə minnətdarlığını bildirib.

Möhtərəm cənab Prezident!

Siz hər dəfə ictimaiyyətlə, sadə insanlarla görüşəndə onlara öz sağlamlığına qarşı diqqətli olmağı, heç olmasa ildə bir dəfə tibbi müayinələrdən keçməyi məsləhət görürsünüz. Bu tövsiyəniz son illər artıq ənənəyə çevrilib. Elə bu il də ölkənin bütün şəhər və rayonları üzrə 5 milyon 373 min nəfər səhiyyə müəssisələrində tam müayinə olunub. Müxtəlif xəstəliklər aşkarlanan 650 mindən çox insan ambulator, 42800 nəfər stasionar müalicəyə cəlb edilib. Şübhə yoxdur ki, xəstəliklərin vaxtında aşkarlanması və müalicəsi öz müsbət nəticələrini göstərəcək.

Səhiyyənin inkişafının mühüm şərtlərindən biri də yüksək ixtisaslı kadr hazırlığıdır. Son illər tibb təhsilində rezidentura pilləsinin tətbiqi, həkimlərin sertifikasiyası, mərkəzləşdirilmiş işəqəbul imtahanları, mütəxəssislərin tanınmış xarici klinikalarda hazırlıq keçmək imkanı və digər tədbirlər həkim kadrlarının hazırlığı sisteminə mahiyyətcə yeni yanaşma formalaşdırıb. Nəticədə, vaxtilə ölkəmizdə əlçatmaz olan müasir diaqnostik tədqiqatlar, mürəkkəb kardiocərrahiyyə, invaziv, transplantasiya, süni oynaq əməliyyatları bizim tibb mərkəzlərində, yerli mütəxəssislər tərəfindən həyata keçirilir.

Azərbaycan səhiyyəsi bu gün tibb xidmətini beynəlxalq standartlara uyğun təşkil etmək iqtidarındadır. Bunu xarici mütəxəssislər də qeyd edirlər.

*(Ardı səhifə 3-də)*

# Prezident İlham Əliyev: «2017-ci ildə də büdcəmiz sosialyönümlü olmalıdır»



*(Əvvəli 2-ci səhifədə)*

Belə ki, ölkəmizdə bu ilin ən mühüm idman hadisəsi – altı yüz milyona yaxın tamaşaçısı olan «Formula-1» yarışlarının hazırlıq mərhələsində təşkilatçılar qarşıya çox ciddi tələblər, o cümlədən tibb xidmətinin təşkili ilə bağlı şərtlər qoymuşdular. Bunlar nəinki idmançıların ilkin tibbi yardımının təşkili, ümumiyyətlə, müasir tibb infrastrukturunun olmasını tələb edirdi. Yalnız tibb müəssisələrinin təchizatını, personalın səviyyəsini, tibbi yardımın təşkili vəziyyətini öyrənəndən sonra yarışda tibb xidmətinin təşkilini Azərbaycana həvalə etdilər.

Səhiyyəmizin son illərdə tərəqqisini müxtəlif beynəlxalq qurumlar da təsdiqləyir. Böyük Britaniyanın tanınmış «The Legatum Institute» tədqiqat mərkəzi 142 ölkənin monitorinqi nəticəsində son iki ildə Azərbaycan səhiyyəsini 91-ci pillədən 68-ci pilləyə qaldırıb.

Sevindirici haldır ki, bu il ölkəmizin iki tibb müəssisəsi dünyanın ən nüfuzlu JCI (Joint Commission International) beynəlxalq standartlaşdırma təşkilatı tərəfindən akkreditasiyadan keçib. Bu da həmin müəssisələrin dünyada qəbul edilmiş ən yüksək tibbi keyfiyyət və təhlükəsizlik standartlarına uyğun olması deməkdir. Ölkəmizə xarici qonaqların, turistlərin axınını nəzərə alsaq, JCI sertifikatlı səhiyyə müəssisələrinin olması beynəlxalq sığorta şirkətləri üçün çox vacib amildir.

Möhtərəm cənab Prezident, Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədi ilə sentyabrın 26-da keçirilən referendum xalqın dövlətlə birliyini bir daha göstərdi, bütün Azərbaycan xalqının, o cümlədən səhiyyə ictimaiyyətinin iradəsini ifadə etdi. Ümumxalq səsverməsində iştirak edən səhiyyə işçiləri ölkəmizdə sabitliyə, əmin-amanlığa və inkişafa səs verdilər. Sizin diqqət və qayğınızı həmişə öz üzərində hiss edən tibb işçiləri qarşıya qoyulan vəzifələri bundan sonra da əzmlə yerinə yetirəcəklər».

Sonra **təhsil naziri Mikayıl Cabbarov** çıxış edərək, hesabat dövründə təhsil sahəsində görülən işlərdən danışıb.

Müşavirənin sonunda **Azərbaycan Respublikasının Prezidenti** yekun nitqi söyləyib.

Dövlət başçısı bildirib ki, ilin sonuna qədər qalan bütün vəzifələr icra edilməli, xüsusilə investisiya layihələri ilə bağlı işlər getməli, dövlət investisiya proqramı icra edilməlidir. O qeyd edib ki, bu il aparılmış ciddi iqtisadi islahatlar, idarəetmə istiqamətində qəbul edilən önəmli qərarlar artıq öz nəticələrini verməkdədir: «Əminəm ki, gələn il həm idxalın azalması, həm ixracın artırılması istiqamətində çox yaxşı nəticələr olacaq».

Aparılan islahatların dünyanın aparıcı iqtisadi mərkəzləri tərəfindən də yüksək qiymətləndirildiyini söyləyən ölkə Prezidenti dünyanın bir nömrəli iqtisadi forumu olan Davos Dünya İqtisadi Forumunun Azərbaycan iqtisadiyyatını rəqabət qabiliyyətliliyinə görə keçən il dünyada 40-cı, bu il isə 37-ci yerə layiq gördüyünü, bunun çox böyük, tarixi göstərici olduğunu deyib, bildirib ki, MDB məkanında biz, həmişə olduğu kimi, birinciyik və bu liderliyi saxlayırıq.

Dövlət başçısı qeyd edib ki, gəlirlərin azalmasına baxmayaraq, sosial sahədə tam vəsait təmin edilir, heç bir sosial təşəbbüs və layihə ixtisar olunmur. O vurğulayıb ki, gələn ilin dövlət büdcəsində bütün sosial proqramlar öz əksini tapmalıdır: «2017-ci ildə də büdcəmiz sosialyönümlü olmalıdır. Əlbəttə, investisiyalar üçün də kifayət qədər vəsait nəzərdə tutulmalıdır». Əvvəlki illərdə dövlət investisiyalarına üstünlük verildiyini deyən ölkə rəhbəri icra edilmiş layihələrin bugünkü inkişafda rolunu qeyd edib, indi isə özəl sektorun investisiyalarının daha böyük həcmdə cəlb edilməsini vəzifə kimi qoyub.

President bildirib ki, süni qiymət artımına yol verilməməsi üçün həm dövlət orqanları tərəfindən, həm də ictimai nəzarət olmalıdır.

Ölkəmizin sənaye potensialının inkişafına böyük diqqət ayrıldığını söyləyən dövlət başçısı Sumqayıt Kimya Sənaye Parkını, Bakıda Balaxanı və Pirallahı sənaye parklarının yaradılmasını xüsusi qeyd edib. Bu sahədə həyata keçirilən konkret layihələrdən danışarkən deyib: «Pirallahıda dərman istehsalı planlaşdırılır. Ümid edirəm ki, yaxın aylarda artıq birinci dərman istehsalı fabrikinin təməli də qoyulacaq. Biz xarici dərmanlardan, demək olar ki, 100 faiz səviyyədə asılıyıq. Bu həm təhlükəsizlik baxımından narahatedici məsələdir, eyni zamanda, dərmanların alınmasına xaricə böyük valyuta gedir. Buna görə qərar qəbul olundu və investorlar da buna qoşuldular, yaxşı şərait yaratdıq. Azərbaycanda birinci mərhələdə 100-dən çox adda dərman preparatı istehsal olunmalıdır».

Sənayenin və kənd təsərrüfatının inkişafından danışan Prezident İlham Əliyev ölkənin ixrac imkanlarının artması ilə bağlı nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə də ehtiyac duyulduğunu deyib.

Dövlət başçısı həmçinin «ASAN xidmət» mərkəzlərinin sayının artırılacağından, yeni yaradılan ailə biznesinə «ASAN dəstək» sistemindən, turizm sektorunun inkişafından, «ASAN viza» sistemindən danışıb. Qeyd edib ki, gələn il sosial infrastruktur layihələri icra ediləcək, məktəblərin, xəstəxanaların, olimpiya mərkəzlərinin tikintisi davam etdiriləcək: «Bu il dünya iqtisadiyyatı üçün, dünya üçün ağır il olmuşdur. Ancaq əminəm ki, Azərbaycan son üç ay ərzində görüləcək işlər nəticəsində 2016-cı ili də uğurla başa vuracaq. 2017-ci il də uğurlu olacaq. Əminəm ki, qarşıya qoyulan bütün vəzifələri icra etmək üçün bizdə kifayət qədər iradə, güc var. Xalq bizim siyasətimizi dəstəkləyir, referendumun nəticələri bunu bir daha təsdiqləyir. Bizim yolumuz aydındır. Biz bundan sonra da inkişaf və tərəqqi yolu ilə gedəcəyik».

# Həkimlər təltif olundular

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıt şəhərinin sosial-iqtisadi və mədəni inkişafında xidmətləri olan bir qrup şəxsin təltif edilməsi ilə bağlı üç Sərəncam imzalayıb.**

Mükafatlandırılanlar arasında tibb işçiləri də var. Belə ki, Sumqayıt Şəhər Uşaq Xəstəxanasının Reanimasiya şöbəsinin müdiri Firdovsi Abbasova, Sumqayıt 1 nömrəli Şəhər Xəstəxanasının Urologiya şöbəsinin müdiri Əhmədəli Həsənova, Sumqayıt şəhəri 3 nömrəli Uşaq Poliklinikasının baş həkimi Tacirə Həsənovaya və Sumqayıt şəhəri Vərəm Əleyhinə Xəstəxanasının baş həkimi Asif Quliyevə «Əməkdar həkim» fəxri adı verilib.

Sumqayıt 4 nömrəli Şəhər Xəstəxanasının Cərrahiyyə şöbəsinin müdiri Rəfiəli Novruzov, Sumqayıt Şəhər Səhiyyə Şöbəsinin məsləhətçisi Səkinə Sadıxova və Sumqayıt şəhəri Təcili Tibbi Yardım Xəstəxanasının Neyrocərrahiyyə şöbəsinin müdiri Emin Yaqubov «Tərəqqi» medalı ilə təltif olunublar.

Təbrik edirik!

# Səhiyyə naziri Oqtay Şirəliyev Ağdaşda vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq dövlət orqanları rəhbərlərinin bölgələrdə təşkil edilən səyyar qəbul günləri qrafikinə əsasən, səhiyyə naziri Oqtay Şirəliyev Ağdaş Mərkəzi Rayon Xəstəxanasında vətəndaşlarla görüşüb.

Səhiyyə naziri Ağdaşla yanaşı, Yevlax, Goranboy rayonlarının və Mingəçevir şəhərinin sakinlərini qəbul edib. Müraciətlər əsasən sağlamlıq problemləri, işlə təminat və sairlə bağlı olub.

Qəbul zamanı qaldırılan məsələlər nazirliyin müvafiq qurumlarının nümayəndələrinin iştirakı ilə araşdırılıb. Onların bəziləri yerində həllini tapıb, digərləri ilə bağlı göstərişlər verilib.

Nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlər aidiyyəti üzrə çatdırılmaq üçün qeydiyyata alınıb və nəzarətə götürülüb.

# Tibb təhsili üzrə Azərbaycan – ABŞ əməkdaşlığı genişlənir



**Bakıda İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin (BMDTU) Bakı filialı ilə Amerika Birləşmiş Ştatları Texas Universiteti MD Anderson Xərçəng Mərkəzi arasında əməkdaşlıq haqqında müqavilə imzalanıb.**

Sənədi Azərbaycan tərəfdən BMDTU Bakı filialının rektoru, professor Əziz Əliyev, ABŞ tərəfdən MD Anderson Xərçəng Mərkəzinin layihələr direktoru Karen Virciniya Frensis imzalayıblar.

Əməkdaşlıq müqaviləsinə müvafiq olaraq, İ.M.Seçenov adına BMDTU Bakı filialının tələbələri MD Anderson Xərçəng Mərkəzində klinik ixtisaslar üzrə praktiki rotasiya keçə biləcəklər.

Qeyd edək ki, Texas Universitetinin MD Anderson Xərçəng Mərkəzi 1971-ci ildə ABŞ-ın Xərçəng tədqiqatları üzrə Milli Proqramına uyğun olaraq təsis edilmiş üç tammiqyaslı xərçəng araşdırmaları mərkəzindən biridir və ABŞ-ın analoji müəssisələri arasında birinci yeri tutur. Akademik dərəcələr vermək hüququna malik Mərkəz həm klinik fəaliyyət, həm də tədqiqat işləri ilə məşğuldur.

# ATU ilə Türkiyənin Memorial Xəstəxanalar Qrupunun yeni əməkdaşlıq imkanları



**Azərbaycan Tibb Universiteti (ATU) Türkiyənin Memorial Xəstəxanalar Qrupu ilə əməkdaşlığı genişləndirmək niyyətindədir. Yaxın gələcəkdə onların birgə tədbirlər, əməliyyatlar, seminar və elmi konfranslar keçirməsi planlaşdırılır. ATU-nun rektoru, professor Gəray Gəraybəyli ilə Memorial Xəstəxanalar Qrupunun baş direktoru Uğur Gençin görüşü zamanı bununla bağlı ilkin razılıq əldə olunub.**

Görüşdə Gəray Gəraybəyli ATU ilə Memorial Xəstəxanalar Qrupu arasında uzun illərdən bəri əməkdaşlığın mövcud olduğunu vurğulayaraq deyib: «İndiyədək bir çox sahələrdə birgə tədbirlər təşkil edilib. Bunlar əsasən təbabətin ginekologiya, endokrinologiya, cərrahiyyə istiqamətləri ilə bağlı olub. Biz digər önəmli sahələr – pediatriya, oftalmologiya, psixiatriya, nevrologiyaya da diqqət ayırmaq istərdik».

Rektorun sözlərinə görə, indiyədək azərbaycanlı gənc həkimlər Türkiyədə təcrübə keçir, həmçinin rezidentura pilləsində çalışanlar da qardaş ölkədə praktikada ola bilirlər: «Biz İstanbul Universiteti müəllimlərinin ATU-dakı tədris prosesinə cəlb olunması arzusundayıq. Tələbələrin də biliklərinin artırılması üçün xüsusi dərslərin keçirilməsi, əməliyyatların canlı yayımla nümayiş olunmasını təşkil etmək istərdik. Simulyasiya otaqlarımızda praktiki vərdişlərin tədrisi ilə bağlı qısamüddətli kursların təşkili tələbələrimizin bacarıqlarının artırılması üçün böyük töhfə olardı», - deyə G.Gəraybəyli bildirib.

Öz növbəsində Uğur Genç Türkiyə səhiyyəsində invaziv cərrahiyyə, qaraciyər transplantasiyası, radiologiya, süni mayalanma və digər sahələr üzrə əldə olunan nailiyyətlərdən danışıb, bu təcrübəni Azərbaycanla paylaşmaq niyyətində olduqlarını bildirib: «Hesab edirik ki, bilik və təcrübə paylaşılanda daha dəyərli olur. Bu baxımdan biliklərimizi Azərbaycanla paylaşmağa hər zaman hazırıq».

Söhbət zamanı əməkdaşlıq perspektivləri müzakirə olunub. Türkiyəli həkimlərin ATU-da qısamüddətli kurs keçməsi, eləcə də onların keçirdiyi nadir əməliyyatların bu təhsil ocağının tələbələri üçün canlı yayımlanması barədə razılıq əldə edilib.

# Dağıstan Tibb Akademiyası ilə əməkdaşlıq əlaqələri qurulur

**Rusiya Federasiyası Səhiyyə Nazirliyinin Dağıstan Dövlət Tibb Akademiyası (DDTA) Azərbaycanla əməkdaşlığın inkişafında maraqlıdır. Bu münasibətlər ölkəmizdə ali və diplomdansonrakı tibb təhsili üçün də faydalı ola bilər.**

Bu günlərdə Bakıda Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu (ADHTİ) ilə DDTA arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Sənədi Ə.Əliyev adına ADHTİ-nun rektoru, professor Nazim Qasımov və DDTA-nın rektoru, professor Süleyman Mammayev imzalayıblar.

Bu məqsədlə keçirilən mərasimdə professor N.Qasımov dağıstanlı həmkarlarına institutun tarixindən, onun adını daşıdığı professor Əziz Əliyevin Dağıstanda fəaliyyətindən, xalqlarımız arasındakı əlaqələrin inkişafında rolundan söz açıb. İmzalanan müqaviləni həmin ənənələrin davamı kimi qiymətləndirib. Həm Azərbaycan, həm də digər ölkələrdən olan həkim və əczaçıların təkmilləşməsi və ixtisasartırması istiqamətində ADHTİ-nin gördüyü işlərdən danışan rektor bildirib ki, institutda müasir tələblərə cavab verən şərait, ən yüksək səviyyəli elektron cihaz və avadanlıqlarla təminat, tədrisdə qabaqcıl informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sayəsində burada distant təhsil inkişaf edir, praktik həkimlərin peşə vərdişlərinə yiyələnməsini, müasir endoskopik, mini-invaziv laparoskopik cərrahi metodların mənimsənilməsini təmin etmək məqsədilə simulyasiya mərkəzi yaradılıb, tədris prosesinə yüksək ixtisaslı əcnəbi mütəxəssislər cəlb edilir. İnstitutda həkim-müdavimlərin biliklərinin elektron-test sistemi ilə qiymətləndirilməsi DDTA rəhbərliyinin böyük marağına səbəb olub.

Müqavilədə klinik və profilaktik təbabət, səhiyyənin təşkili və aktual problemlərinə həsr olunmuş birgə elmi tədqiqatların aparılması, onların nəticələri əsasında, həmçinin tədris prosesinin təşkili sahəsində təcrübə mübadiləsinə dair konfrans və seminarların keçirilməsi, tədris prosesinə və səhiyyə praktikasına tədrisin, diaqnostikanın, profilaktika və müalicənin yeni metodlarının tətbiqi məsələlərinin koordinasiyası, eləcə də ali tibb mütəxəssislərinin davamlı professional təhsili sahəsində müasir metodik və elmi-praktik informasiyaların mübadiləsi nəzərdə tutulur.

DDTA-nın rektoru, professor S.Mammayev öz çıxışında məlumat verib ki, Akademiyada tədris prosesində yüksək texnoloji avadanlığın, müasir trenajorların və multimedia sistemlərinin istifadəsi yüksək nəticələr əldə etməyə imkan verir. Burada tədris prosesi ilə yanaşı, tibbi və bioloji elmlər sahəsində yeni biliklərin əldə edilməsi, perspektiv tibbi texnologiyaların işlənməsi və hazırlanmasına yönəlmiş kompleks fundamental və tətbiqi elmi tədqiqatlar da aparılır, yüksək ixtisaslı elmi kadrlar hazırlanır, praktik səhiyyəyə qabaqcıl müalicə, diaqnostika və profilaktika üsulları aktiv tətbiq edilir.

İmzalanma mərasiminin sonunda ali tibb kadrlarının hazırlığı ilə məşğul olan hər iki qabaqcıl təhsil müəssisəsi arasında əməkdaşlığın davamlı olacağına əminlik ifadə edilib.

Dağıstan Dövlət Tibb Akademiyasının nümayəndə heyəti əməkdaşlığa dair digər bir müqaviləni Azərbaycan Tibb Universiteti (ATU) ilə imzalayıb.

Görüş zamanı ATU-nun rektoru, professor Gəray Gəraybəyli rəhbərlik etdiyi tədris müəssisəsinin beynəlxalq əlaqələrindən söz açıb, bir çox ali təhsil müəssisələri ilə, o cümlədən, təkcə Türkiyənin 16 universiteti ilə əməkdaşlığa dair qarşılıqlı müqavilələrin imzalandığını deyib. Qeyd edib ki, beynəlxalq əlaqələrin möhkəmləndirilməsi, fərqli təhsil sistemləri ilə tanışlıq və yeniliklərin tətbiqi nəticədə tədrisin təkmilləşdirilməsinə kömək olur. ATU-da tədris sistemində aparılan islahatlardan danışan rektor universitetdə ikipilləli təhsil sisteminin tətbiq olunduğunu söyləyib. O, beynəlxalq münasibətlər zamanı dil amilinin roluna toxunub, həm dil, həm də məsafə baxımından DDTA ilə əməkdaşlığın üstünlüyünü, daha rahat olacağını qeyd edib.

DDTA-nın rektoru, professor Süleyman Mammayev son illər Azərbaycanda hər sahədə müsbət dəyişikliklər baş verdiyini, islahatların özünü təhsil və səhiyyə sistemində də göstərdiyini bildirib. Rəhbərlik etdiyi müəssisə haqqında məlumat verən rektor ATU-nun klinikalarını, əsasən də Anatomiya Muzeyini bəyəndiklərini qeyd edib, qarşılıqlı tələbə mübadiləsindən yararlanmaq istədiklərini deyib.

# Tibb Universitetində rezidentlər üçün geniş imkanlar yaradılıb



**Azərbaycan Tibb Universitetinə (ATU) bu il qəbul olunmuş rezidentlərlə görüş keçirilib. Tədbirdə toplantı iştirakçılarına rezidentura təhsilinin təşkili qaydaları haqqında ətraflı məlumat verilib.**

**ATU-nun Rezidentura şöbəsinin müdiri, dosent Rizvan Məmmədov** bildirib ki, təbabətimizin gələcəyi olan rezidentlərin yüksək ixtisaslı mütəxəssislər kimi formalaşması, həm nəzəri, həm də praktiki vərdişlərə yiyələnməsi üçün ATU-da hər cür imkan yaradılıb, müasir standartlara uyğun lazımi şərait qurulub. Rezidentlər də bu imkanlardan faydalanmalı, öz üzərlərinə düşən öhdəlikləri layiqincə yerinə yetirməlidirlər.



R.Məmmədov deyib ki, elmi biliklərin mənimsənilməsində daim fəallıq göstərən, xəstələrlə mütəmadi təmasda olan rezidentlər xarici ölkələrdə keçirilən elmi konfranslarda iştirak edə biləcəklər. Rezidentlərə xarici dil biliklərini də təkmilləşdirmək məsləhət görülüb.

Tədbirdə çıxış edənlər rezidentlərə təbriklərini çatdırıb, onlara seçdikləri ixtisaslara yüksək səviyyədə yiyələnməkdə uğurlar arzulayıblar.

Toplantı qarşıda duran vəzifələrin müzakirəsi ilə başa çatıb.

Qeyd edək ki, ATU-ya bu il 138 rezident qəbul olunub. Onlar universitetin klinikalarında və digər bazalarında fəaliyyət göstərirlər.

BAŞ SPONSOR:

HB Co LTD

Sağlam gələcək - bizimlə gələcək!

Azərbaycan, Bakı-Az1116, 7-ci mkr. Abay Kunanbayev küç. Tel.: (+99412) 5633717, 5629499
Faks: (+99412) 5633425 E-mail: hbcoltd@ultel.net Web: www.hb-med.com

«Tibb qəzeti» redaksiyası tel: (012) 596-06-61

# «Bu o demək deyil ki, dövlət xəstəxanalarında xidmət pullu olacaq»

**Azərbaycanda publik hüquqi şəxs statusunda fəaliyyət göstərəcək dövlət xəstəxanaları qismən, bələdiyyə xəstəxanaları isə əsasən pullu xidmət göstərəcək. Bu məsələ Nazirlər Kabinetinin «Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi»nə etdiyi dəyişiklikdə əksini tapıb.**

Sənədə əsasən, indiyə qədər dövlət xəstəxanalarının vəzifəsi pulsuz tibbi xidmət göstərmək olub, dövlət tibb müəssisələrinin yalnız bəzi növlərinin Nazirlər Kabineti tərəfindən müəyyən edilən ixtisaslaşdırılmış pullu tibbi yardım göstərmək hüququ olub. Dəyişikliyə görə isə, bundan sonra dövlət xəstəxanaları yalnız «Əhalinin sağlamlığının qorunması haqqında» Qanunla müəyyən edilmiş hallarda pulsuz xidmət göstərəcək. Eyni zamanda, dövlət adından yaradılan müəssisələrdə əvvəlki qaydada növləri Nazirlər Kabineti tərəfindən müəyyən edilən ixtisaslaşdırılmış pullu tibbi yardım xidməti olacaq.

Qeyd edək ki, Nazirlər Kabinetinin «Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi»nə edilən sözügedən dəyişiklikdən sonra cəmiyyətdə dövlət tibb müəssisələrində pulsuz xidmətlərin artıq ləğv edilməsi, pullu xidmətlərin yaradılması ilə bağlı suallar meydana çıxıb. Bunu nəzərə alaraq, **Səhiyyə Nazirliyinin Hüquq və daxili nəzarət sektorunun müdiri Elxan Əzizov** Trend İnformasiya Agentliyinə müsahibə verərək məsələyə aydınlıq gətirib.

- Dövlət müəssisələrinin pullu xidmət göstərməsi bizdə əvvəl də var idi. «Əhalinin sağlamlığının qorunması haqqında» Qanunda bu imkan nəzərdə tutulub. Yaxın gələcəkdə icbari tibbi sığorta proqramı tətbiq olunarkən kimsə hansısa müəssisəyə müraciət edəndə onun üçün xidmətlər yenə də pulsuz olacaq. Ancaq həmin xidmətə görə sığorta təşkilatı tərəfindən ödəniş ediləcək. Sığorta təşkilatının xidmətin pulunu ödəyə bilməsi üçün isə müəssisənin pullu xidmət göstərmək imkanı olmalıdır.

Amma bu o demək deyil ki, hazırkı sistem dəyişdi və vətəndaşlar üçün tibbi xidmətlər pullu olacaq. Xeyr, sadəcə olaraq, hazırda hökumət hüquqi sənədləşməni bugünkü qanunvericiliyin tələblərinə uyğunlaşdırır.

«Publik hüquqi şəxslər haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul olunub. Publik hüquqi şəxslərin də özlərini maliyyələşdirib saxlaya bilməsi üçün pullu xidmətlər göstərmək imkanı olacaq. Müxtəlif sahələrdə publik hüquqi şəxslər ola bilər, o cümlədən, səhiyyə sahəsində də belə tibb müəssisələri olacaq. Amma onlar yenə də dövlət müəssisələri kimi icbari tibbi sığorta sisteminə keçənə qədər vətəndaşlara pulsuz xidmətlər göstərməyə davam edəcəklər. Sadəcə, indi müəssisələr üçün pullu xidmət göstərmək imkanı Nazirlər Kabinetinin yeni qərarında əks olunur və burada qeyd edilir ki, dövlət müəssisələri pullu xidmət göstərə bilər. Bu da sığorta ilə bağlıdır. Artıq tibb müəssisələri maliyyə vəsaitini dövlətin büdcəsindən deyil, sığorta şirkətindən alacaq.

**- Onda belə çıxır ki, pullu xidmətə sırf icbari tibbi sığorta sisteminin tətbiqi ilə bağlı keçilir?**

- Demək olmaz ki, tam icbari tibbi sığorta ilə bağlıdır. Çünki icbari tibbi sığorta olmamışdan əvvəl də bu, qanunda var idi. Əvvəl tibb müəssisələrinin nümunəvi nizamnaməsi olmadığından, pərakəndəlik hökm sürürdü. Bəzilərinin sənədləri əsasnamə, bəzilərininki isə nizamnamə formasında təsdiq olunaraq qeydiyyata alınırdı. Amma artıq hökumət tərəfindən təsdiq edilmiş vahid formada nizamnamə olacaq. Bütün növ tibb müəssisələrinin, hətta bələdiyyə tibb müəssisələrinin nizamnamələri bu nümunəvi sənədə uyğun tərtib ediləcək.

**- Pullu xidmətlər nə zamandan tətbiq olunmağa başlayacaq?**

- İcbari tibbi sığorta sistemi tam işə düşməyənə qədər dövlət müəssisələrində pullu xidmətlər tətbiq edilməyəcək.

**- Hansı tibbi xidmətlər pullu olacaq?**

- Bunu Nazirlər Kabineti müəyyən etməlidir. Nazirlər Kabineti pullu xidmətlərin hansı xidmətlərə aid olacağını müəyyənləşdirdikdən və təsdiq etdikdən sonra o mexanizm işə düşəcək.

**- Azərbaycanda gələn ilin əvvəlindən pilot regionlarda – Mingəçevir və Yevlaxda icbari tibbi sığortanın tətbiqi nəzərdə tutulur. Həmin ərazidə yaşayan, icbari sığortaya cəlb olunmayan vətəndaşlar pullu tibbi xidmətdən yalnız ödəniş aparmaqla istifadə edə biləcəklər?**

- Pilot layihələr həyata keçiriləndə pullu tibbi xidmətlərin tətbiqinə başlanılmayacaq. Pullu xidmətə yalnız sığorta sistemi bütün ölkə üzrə tətbiq edildikdən sonra keçiləcək. Bu hələ sınaq layihədir, istər-istəməz müəyyən çətinliklər, suallar ortaya çıxacaq. Bütün suallar öz cavabını tapdıqdan, ortaya çıxan problemlər həll olunduqdan sonra bütün ölkə ərazisində sistemin tətbiqinə başlanılacaq. Yalnız bundan sonra pullu xidmət məsələsi gündəmə gələcək.

**- Deməli, pullu xidmətin tətbiqinə başlanıldıqda əhalinin bütün təbəqələri artıq sığortalanmış olacaq və bu xidmətlərin tətbiqi adi vətəndaşın cibinə o qədər də təsir göstərməyəcək…**

- Ümumiyyətlə, təsir göstərməyəcək. Əksinə, hətta deyərdim ki, bu halda vətəndaşın daha keyfiyyətli xidmət tələb etmək imkanı yaranacaq. Çünki həmin xidmətin pulunu sığorta şirkəti ödəyəcək və vətəndaşın da hər hansı xidmətdən faydalanmaq imkanı olacaq.

**- Pullu xidmətlərin təşkili ölkədəki bütün dövlət müəssisələrinə şamil ediləcəkmi?**

- Xeyr, hansı müəssisə sığorta proqramında iştirak edəcəksə, onlar da pullu xidmət göstərə biləcəklər. Hazırda bu məsələlər tam təsdiq olunmayıb. Amma yeni qərar gələcəkdə sığorta sistemi tətbiq olunduqda hər hansı çətinliklərin meydana çıxmamasına zəmin yaradır. Hesab edirik ki, bu, hökumətin qəbul etdiyi çox vacib qərardır.

**- Bəs sığorta proqramında iştirak etməyən dövlət müəssisələrində pullu xidmətlərin təşkili necə olacaq?**

- Hər halda, onların fəaliyyətinə yenidən baxılacaq. Sığorta proqramının müəssisələr üçün müəyyən tələbləri olacaq. Hər bir müəssisə özü çalışmalıdır ki, sığorta proqramında iştirak üçün qoyulan şərtlərə uyğun olsun. Təbii ki, tələblərə cavab verən müəssisələr proqramda iştirak edəcəklər.

**İlhamə İSABALAYEVA, Trend**

# Ölkəmizdə qripə qarşı profilaktik tədbirlər gücləndirilir

**Payız-qış ayları qrip və kəskin respirator xəstəliklərin artdığı, bəzən hətta epidemiya kimi yayıldığı mövsümdür. Azərbaycanın bu il belə problemlərlə üzləşməməsi üçün səhiyyə naziri Oqtay Şirəliyev bu xəstəliklərə qarşı profilaktik tədbirlərin gücləndirilməsi ilə bağlı əmr imzalayıb.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, sənəd 2016-2017-ci illərin payız-qış mövsümünün başlanması ilə əlaqədar əhali arasında qrip və kəskin respirator virus infeksiyalarına qarşı profilaktik və əks-epidemik tədbirlərin, həmçinin infeksiya üzrə epidemioloji monitorinqin gücləndirilməsi məqsədi daşıyır.

Əmrdə Səhiyyə Nazirliyinin müvafiq tibb idarə və müəssisələrinin rəhbərlərinə məktəb və məktəbəqədər uşaq müəssisələrində, ali və orta təhsil müəssisələrində tibbi müşahidələri təşkil etmək, qripə şübhəli xəstələrin, xüsusən uşaqların və yaşlı əhalinin hospitalizasiyası üçün xüsusi palatalar ayırmaq tapşırılır. Sənəddə həmçinin lazım gəldikdə tibb müəssisələrində məhdudlaşdırıcı rejimin tətbiqi, tibb personalının fərdi qoruyucu vasitələrdən (maskalardan) istifadəsinin təmin olunması, dezinfeksiya işlərinin aparılmasına xüsusi diqqət, ağır kəskin respirator xəstəlik halları barədə məlumatın dərhal yerli gigiyena və epidemiologiya mərkəzlərinə verilməsi, şübhəli xəstələrdən götürülmüş nümunələrin Respublika Taun Əleyhinə Stansiyasına çatdırılması, qrip və kəskin respirator virus xəstəliklərinin müalicəsi üçün dərman preparatları ehtiyatının yaradılması kimi məsələlər də öz əksini tapıb.

Həmçinin Azərbaycanın şəhər və rayonlarının gigiyena və epidemiologiya mərkəzlərinin direktorlarına tapşırılır ki, tədris və tibb müəssisələrində sanitariya-gigiyena norma və qaydalarına, dezinfeksiya rejiminə ciddi riayət edilməsinə nəzarəti gücləndirsinlər. Məktəbəqədər uşaq müəssisələrində, məktəblərdə tibbi müşahidə aparılsın və qrip simptomları olan uşaqlar aşkarlandıqda dərhal sağlam uşaqlardan təcrid edilsinlər.

Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun rəhbərliyinə ağır formalı qrip xəstələrinin hospitalizasiyası üçün mənfi təzyiqli boksların tam hazır vəziyyətə gətirilməsi, dərman vasitələri, tibbi ləvazimat və inventarla təchizata dair göstərişlər verilib.

# ÜST həkimləri qrip əleyhinə peyvənd olunmağa çağırır

**Avropa əhalisinin qrip və kəskin respirator infeksiyalarla bağlı məlumatlandırılması üzrə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) builki kampaniyası pasiyentlərlə, o cümlədən hamilə qadınlarla və uşaqlarla daim təmasda olan və onları qripə yoluxmaq riski ilə üz-üzə qoyan həkimlərin fəaliyyətinə yönəlib.**

Belə ki, ÜST Avropa Regional Bürosu tibb işçilərini qrip əleyhinə peyvənd olunmağa çağırır. Qurumun yaydığı məlumatda deyilir ki, bəzən qrip mövsümündə tibb müəssisələrinin heyətinin yarısı infeksiyaya yoluxur. Xəstə tibb işçiləri öz pasiyentlərini də yoluxdura bilərlər, bu isə xüsusilə əhalinin zəif qrupları – balaca uşaqlar və yaşlı insanlar, hamilələrlə ünsiyyətdə daha təhlükəlidir.

ÜST tibb işçilərinə hər payız qrip əleyhinə peyvənd olunmağı tövsiyə edir. Bildirir ki, dünya ölkələrinin əksəriyyətində bu barədə rəsmi tövsiyələr var. Bununla belə, bütün ölkələrin yarısından çoxunda hər il səhiyyə işçilərinin yalnız üçdəbiri qripə qarşı peyvənd alır.

# Nikahdan öncə müayinələrdə 749 nəfərdə sifilis, 133 nəfərdə İİV aşkar olunub

**Ölkəmizdə nikaha daxil olmaq istəyənlərin icbari tibbi müayinəsinin tətbiq edildiyi vaxtdan, yəni 2015-ci il iyunun 1-dən bu ilin sentyabr ayının sonuna qədər tibbi müayinələrdən 197 554 nəfər keçib. Yalnız sentyabr ayı ərzində 10 990 nəfər ailə qurmağa hazırlaşan şəxs müayinə olunub.**



Bu barədə Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, ümumilikdə, müayinədən keçən şəxslərin əksəriyyətinin sağlamlıq durumunun qənaətbəxş olduğu müəyyən edilib. Bununla belə, indiyədək müayinələrdən keçmiş şəxslərdən bəzilərində müxtəlif infeksiyalar, o cümlədən 749 nəfərdə sifilis, 133 nəfərdə isə İİV aşkar olunub. Həmçinin 9 131 nəfərdə talassemiya daşıyıcılığı aşkarlanıb.

Qeyd edək ki, nikaha daxil olmaq istəyən vətəndaşların mütləq qaydada tibbi müayinəsi «Ailə Məcəlləsində dəyişikliklərin edilməsi haqqında» Qanunun tətbiqi ilə əlaqədar olaraq ötən il iyunun 1-dən həyata keçirilir. Bu məqsədlə Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilmiş dövlət və bələdiyyə tibb müəssisəsində zəruri şərait yaradılıb. Tibbi müayinə və məsləhətlər nikaha daxil olmaq istəyən şəxslərin və ya onlardan birinin yaşayış yeri üzrə aparılır.

# Respublika Perinatal Mərkəzində irsi qan xəstəliklərinə dair konfrans keçirilib

**İrsi qan xəstəliklərinin qarşısının alınması, belə xəstələrin müalicəsi ölkəmiz üçün aktual olan səhiyyə məsələlərindəndir. Bu sahədə problemlərin aradan qaldırılması bir sıra hallarda diaqnozun düzgün və vaxtında qoyulmasından asılıdır. Bu məsələlər Respublika Perinatal Mərkəzində (RPM) keçirilən «Azərbaycan Respublikasında irsi qan xəstəliklərinin diaqnostikası, müalicəsi və profilaktikası» mövzusunda konfransda müzakirə olunub.**



Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, nazirliyin hematologiya və neonatologiya üzrə baş mütəxəssislərinin, həmçinin Respublika Diaqnostika Mərkəzinin (RDM) müvafiq ixtisaslı əməkdaşlarının iştirak etdiyi konfransda bir sıra maraqlı mövzularda təqdimatlar keçirilib, o cümlədən «Respublika Perinatal Mərkəzində aşkarlanan genetik xəstəliklər», «Amniosentez və CVC-nin perinatal diaqnostikada rolu», «Talassemiya daşıyan hamilələr və doğuşun gedişatı», «Talassemiyalı uşaqların erkən neonatal dövrdə qiymətləndirilməsi», «Mama-ginekologiya və neonatologiyada müasir laborator metodlar» mövzularında məruzələr dinlənilib.

Konfransda çıxış edən **RDM-in Laboratoriya şöbəsinin müdiri Arif Yusifov** mama-ginekologiya və neonatologiyada müasir laborator metodlara nəzər salaraq, ana və uşaq sağlamlığının qorunmasında vacib məqamlara toxunub, qadınların vaxtında müayinələrdən keçməsinin, analiz nəticələrinin dəqiq və xətasız olmasının zəruriliyini vurğulayıb. Bildirib ki, bəzi analiz nəticələrinin təcili – bir neçə saat, bəzən isə dəqiqələr ərzində alınması vacibdir. Bəzən isə xəstələr ev şəraitində laborator analiz verməyə məcbur olurlar. RDM-də məhz belə müasir, avtomatik analizatorlarla təchiz olunmuş, bütün sutka boyu istirahətsiz işləyən laboratoriya fəaliyyət göstərir. ISO15189: 2007 sertifikatını almış laboratoriyada iş beynəlxalq standartlara uyğun şəkildə həyata keçirilir. Personalı müasir avadanlıqlarla iş üzrə təlim və attestasiyadan keçmiş laboratoriyada bütün növ laborator analizlər aparılır. Ənənəvi laborator üsullardan fərqli olaraq, «Femoflor» test müayinə üsulu ilə qadınlar həkimə bir dəfə müraciət etməklə, 22 qrupdan artıq mikroorqanizm barədə dolğun məlumat əldə edə bilərlər. Analizin nəticələrini elektron ünvan vasitəsilə, yaxud da rəsmi internet saytına daxil olub qeydiyyatdan keçməklə əldə etmək mümkündür.

Sonra təqdimatlar ətrafında fikir mübadiləsi aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Ana südü körpələr üçün çox vacibdir

**«Qidalanma uşaqların sağlamlığını, onların harmonik, düzgün inkişafını tənzimləyən mühüm amildir. Buna görə o, kəmiyyət və keyfiyyətcə səmərəli olmalı, körpə orqanizminin tələblərini ödəməlidir. Bu cəhətdən ana südü körpələr üçün ən ideal qidadır». Bu fikirləri K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutunda keçirilən «Körpələrin qidalanmasında ana südünün əhəmiyyəti» mövzusunda mətbuat konfransında institutun direktoru, Səhiyyə Nazirliyinin pediatriya üzrə baş mütəxəssisi, professor Nəsib Quliyev səsləndirib.**

Yenidoğulmuşların ana südü ilə qidalanmasının genofondun qorunması baxımından da vacibliyini vurğulayan N.Quliyev bunu nəzərə alaraq, qanunvericilikdə də müvafiq maddələrin yer aldığını, orada ana südü ilə qidalanmanın təbliği, uşağını ana südü ilə qidalandıran anaların sosial müdafiəsi, ölkəyə gətirilən, ana südünü əvəz edən süni uşaq qidalarının satışına nəzarətin həyata keçirilməsi kimi məsələlərin təsbit edildiyini söyləyib.

Baş pediatr bildirib ki, bir sıra dünya ölkələrində olduğu kimi, Azərbaycanda da UNICEF və Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə hər il avqust və oktyabr aylarının ilk həftələrində ana südünün üstünlüklərinə həsr edilən «Ana südü həftəsi» keçirilir: «Bu tədbirin təşkilində əsas məqsəd ana südünün üstünlüklərini, əmizdirmənin vacibliyini, süni qidaların ana südünə nisbətdə fərqini analara çatdırmaq, habelə ana südü ilə qidalandırmada ananın məsuliyyətini artırmaqdır. Hər bir ana bilməlidir ki, dünyaya göz açan körpəni əmizdirmək onun müqəddəs borcudur. Təəssüflə qeyd etmək lazımdır ki, dünyanın bir sıra ölkələrində, o cümlədən Azərbaycanda döşlə əmizdirmənin səviyyəsi arzuolunan deyil. Statistik məlumatlara əsasən, Azərbaycanda 1992-ci ildə yalnız 25%-ə qədər ana öz körpəsinə ana südü verib. Döşlə əmizdirmədə mövcud problemləri araşdırmaq, onları aradan qaldırmaq, ümumilikdə, döşlə əmizdirmənin mühafizəsi və təbliği istiqamətində UNICEF və Səhiyyə Nazirliyinin apardığı məqsədyönlü tədbirlər nəticəsində son illərdə bu rəqəm 50%-ə qədər yüksəlib. Belə ki, hazırda ana südü ilə qidalanma Bakıda 48-50, bölgələrdə isə 50-55 faiz təşkil edir. Əlbəttə, bu hələ də arzuolunan hədd sayıla bilməz. Ancaq müsbət tendensiya göz qabağındadır. Onu da qeyd etmək istərdim ki, ana südü ilə qidalanan uşaqların sayını artırmaq yalnız tibb işçilərinin, pediatrların fəaliyyətindən asılı deyil. Bu sahədə uğur əldə etmək üçün, bütövlükdə, ictimaiyyətin ana südü ilə qidalanmaya baxışı, mövqeyi dəyişməlidir. Biz bu göstəricinin 95-98 faizə yüksəlməsi üçün təbliğat işini daha da gücləndirməyi qarşıya məqsəd qoymuşuq.

Qeyd edim ki, hər bir ananın südü spesifikdir, öz körpəsinə uyğundur, onun üçün adekvatdır. Ana südündə uşağın həyatının ilk 6 ayının bütün tələblərinə cavab verən zülal, yağ, karbohidrat, ferment, vitamin və mineral maddələrin tərkibi ideal surətdə balanslaşıb. Laktasiya prosesində ana südü bir neçə mərhələdən keçir: ilk süd, keçid süd, yetişmiş süd. Müvafiq olaraq, südün tərkibi də dəyişir. Doğuşdan sonrakı ilk günlərdə süd vəziləri zülal və mineral maddələrlə zəngin, tərkibində çoxlu miqdarda A immunoqlobulini (İgA), az miqdarda yağ və karbohidrat olan ilk süd istehsal edir. Südün tam tər-



kibi 2-3-cü həftədə formalaşır».

Körpələr üçün süni qidalardan da danışan professor N.Quliyev bu qidaları istehsal edən şirkətlərin öz məhsullarını satmaq üçün bütün üsullardan istifadə etdiklərini, əməkdaşlarının qapı-qapı gəzdiklərini, hətta məhsullarını hədiyyə kimi verdiklərini də vurğulayıb: «Bəzən hətta həkimlər də bu mənəviyyatsız işlərin iştirakçısına çevrilir, həmin şirkətlərlə razılığa gəlir, 200-300 manata görə, uşaq doğulan kimi anaları səhv istiqamətə yönəldirlər. Təəssüf ki, bunu edənlər də ata və anadır. Körpələrin həyatını 5-10 manata satmaq olmaz. Belə hallara qarşı Səhiyyə Nazirliyi tərəfindən çox ciddi işlər aparılır. Amma, təəssüf ki, tam qarşısını almaq mümkün deyil».

Baş pediatr ana südü ilə süni qarışıqlar arasındakı fərq və süni qidalanmanın təhlükələri ilə bağlı anaların məlumatlandırılmasının önəmini də vurğulayıb. Qeyd edib ki, körpənin ana südü ilə qidalandırılması 2 yaşına kimi davam etdirilməlidir: «Körpə doğulduqdan sonra ilk bir saat ərzində əmizdirilməlidir. Körpənin qidalanma rejimini onun özü təyin edir. Bu, sərbəst rejim adlanır və sutka ərzində 6-8 dəfədən 12 dəfəyədək dəyişə bilər. Körpəni gecə 1-2 dəfə döşə qoymaq olar. Uşaq böyüdükcə, qidalanmaların sayı azalır. Onu da qeyd edim ki, ana südü ilə qidalanan körpənin ilk 6 ay ərzində heç bir başqa qidaya və ya mayeyə ehtiyacı yoxdur. Altı ayından sonra isə uşağa əlavə qidalar verilməyə başlanır. Təbii qidalanan uşağa əmməni imitasiya edən boş əmziklərin verilməsi də yolverilməzdir».

İnstitut direktorunun sözlərinə görə, ana südü erkən ontogenez mərhələlərində körpənin metabolik xüsusiyyətlərinə uyğundur. Körpənin ümumi inkişafına, onun harmonik böyüməsinə, immun müqavimətinə, davranma və psixi reaksiyalarının inkişafına müsbət təsir göstərir, onların gələcəkdə daha yüksək intellektual inkişafına zəmin yaradır: «Döşlə əmizdirmənin ən mühüm üstünlüklərindən biri də ana ilə uşaq arasında emosional və fiziki əlaqəni təmin etməkdir. Ana ilə körpə arasındakı mehribanlıq, doğmalıq, yaxınlıq gələcəkdə uşağın sosial davranışını, psixi inkişafını müəyyən edir. Belə uşaqlar sakit təbiətli, xeyirxah, mehriban və ünsiyyətli olurlar.

Bəzən ana südü ilə qidalanmanın ananın orqanizmi üçün zərərli olduğunu deyənlər də tapılır. Ancaq hamı bilməlidir ki, bunlar yanlış məlumatlardır. Döşlə əmizdirmə həmçinin ananın öz sağlamlığına da müsbət təsir göstərir. Doğuşdan sonrakı qanaxmaların, anemiyanın yaranma ehtimalını azaldır, süd vəzilərini və yumurtalıqları müxtəlif şişlərdən qoruyur, altı ay ərzində növbəti hamiləlik riskini azaldır, osteoporozun qarşısını alır.

Laktasiya müddətində ana südünün çatışmazlığı 1-2% halda obyektiv səbəblərdən əmələ gəlirsə, 98-99% halda subyektiv səbəblərdən, adətən ananın öz davranış səhvlərindən yaranır».

Nəsib Quliyev sonda dövlətin, səhiyyə işçilərinin və ictimaiyyət nümayəndələrinin birgə fəaliyyəti sayəsində ölkəmizdə ana südü ilə qidalandırmanın miqyasını maksimum arzuolunan həddə çatdırmağın mümkün olduğunu deyib. Qeyd edib ki, belə qidalanmanı təkcə hər hansı bir ailənin öz körpəsinə qayğısı kimi qiymətləndirmək düzgün deyil. Əslində, bu, bütün cəmiyyətin körpələrə qayğısıdır. Məqsəd uşaqları sağlam yetişdirmək, sağlam genofondla gələcəyə getməkdir.

BAŞ SPONSOR:
HB Co LTD
*Sağlam gələcək - bizimlə gələcək!*
Azərbaycan, Bakı-Az1116, 7-ci mkr. Abay Kunanbayev küç. Tel.: (+99412) 5633717, 5629499
Faks: (+99412) 5633425 E-mail: hbcoltd@ultel.net Web: www.hb-med.com

«Tibb qəzeti» redaksiyası tel: (012) 596-06-61

# Bakıda V Beynəlxalq Humanitar Forum keçirildi

## «Dəyirmi masa»da müasir tibbin aktual məsələləri müzakirə olundu

**Azərbaycan paytaxtında keçirilmiş V Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində təşkil edilən «dəyirmi masa»lardan biri, ənənəvi olaraq, təbabətin aktual problemlərinə həsr olunmuşdu. Forum iştirakçıları «Molekulyar biologiya, biofizika, biotexnologiya və müasir tibb sahəsində kadr hazırlığı məsələləri: innovativ və etik problemlər» mövzusu ətrafında müzakirələr aparıblar. V Bakı Beynəlxalq Humanitar Forumunda iştirak edən 13 Nobel mükafatı laureatının beşi bu toplantıya qatılıb.**




İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin (BMDTU) Bakı filialının təşkilatçılığı ilə keçirilən «dəyirmi masa»da **filialın rektoru, professor Əziz Əliyev** çıxış edərək, universitetin fəaliyyəti haqqında məlumat verib, ölkəmizdə səhiyyə sahəsində əldə edilmiş nailiyyətlərə görə tibb ictimaiyyəti adından Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

Sonra **İ.M.Seçenov adına BMDTU-nun rektoru, professor Pyotr Qlıboçkonun** tədbir iştirakçılarına məktubu oxunub.



«Dəyirmi masa» çərçivəsində keçirilən üç sessiyada «Müasir tibb elminin çağırışları və tibb təhsilinin problemləri», «Molekulyar biologiya, biofizika və biotexnologiyanın müasir dövrdə innovasiya və etik problemləri» və «Müasir tibbin aktual məsələləri üzrə beynəlxalq əməkdaşlığın genişləndirilməsi problemləri» mövzularında müzakirələr aparılıb.

«Dəyirmi masa»nın **«Müasir tibb elminin çağırışları və tibb təhsilinin problemləri»** mövzusunda sessiyasında çıxış edən kimya üzrə Nobel mükafatı laureatı **Arye Varşel** bioloji sistemlərdən və onların tibb elminə töhfəsindən danışıb, təqdimat əsasında problemin mahiyyətini diqqətə çatdırıb.

Bakıya ikinci dəfə səfər etdiyini deyən ABŞ-ın İllinoys Universitetinin Oftalmologiya və vizual elmlər kafedrasının müdiri, professor **Mark Rozenblat** ölkəmizdə olmaqdan, burada Nobel mükafatçıları ilə səmərəli müzakirələrin aparılmasından məmnunluq duyduğunu söyləyib. Təhsil sistemindəki problemlərdən, texnologiyanın bu sahədə yaratdığı stresslərdən danışan qonaq müasir cəmiyyətdə, o cümlədən biotəbabətdə internetin böyük rolunu, tibb sahəsində nəşr olunan məqalələrin, jurnalların dünya ictimaiyyətinin diqqətinə çatdırılmasının vacibliyini vurğulayıb.

«Proton Partners International» şirkətinin təsisçisi və tibb direktoru, Bukingem Universitetinin Tibb Məktəbinin dekanı **Karol Sikora** bu gün texnologiya sayəsində bütün biliklərin sürətlə yayıldığını bildirib, onkologiya sahəsində problemlərdən, gələcəkdə ortaya çıxacaq çətinliklərdən danışıb.

Hindistan Səhiyyə Şurasının üzvü **Müzəffər Əhməd** ölkəsində səhiyyənin vəziyyəti barədə məlumat verib, səhiyyə və tibb təhsili sahəsində problemləri və çatışmazlıqları diqqətə çatdırıb.

«Dəyirmi masa»nın **«Molekulyar biologiya, biofizika və biotexnologiyanın müasir dövrdə innovasiya və etik problemləri»** mövzusunda keçirilən sessiyasında kimya üzrə Nobel mükafatı laureatı **Avram Herşko** protein sintezi, amin turşuları, proteinlərin hüceyrələrdə hərəkəti ilə bağlı təqdimatla çıxış edib.

Kimya üzrə Nobel mükafatı laureatı **Ada Yonat** isə proteinlərin genetik kodla bağlılığını faktlar əsasında izah edib. O, proteinlərin dərmanlarla reaksiyasından, strukturunu dəyişən antibiotiklərin hazırlanmasının vacibliyindən söhbət açıb.

Peyvəndlərin potensialından və əhəmiyyətindən danışan fiziologiya və tibb üzrə Nobel mükafatı laureatı **Rolf Martin Tsinkernagel** bildirib ki, əhalini qorumaq üçün peyvəndlərə ehtiyac var. O bu gün çox yayılmış Zika və Ebola viruslarına qarşı peyvəndlərin önəmini xüsusi qeyd edib.

Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik **Əhliman Əmiraslanov** molekulyar biologiyanın və biotexnologiyanın bioetik məsələlərinə toxunub, təbabətdə müasir texnologiyaların tətbiqi nəticəsində meydana çıxmış bioetik problemlər barədə məlumat verib. Diqqətə çatdırıb ki, 1999-cu ildə ölkəmizdə UNESCO yanında Bioetika, elmi biliklərin və texnologiyaların etikası üzrə Milli Komitə yaradılıb. Qeyd edib ki, Milli Məclisdə tibb sahəsində qanunların qəbulunda bioetik və hüquqi tərəflər nəzərə alınır.

Son illər yeni texnologiyalar sayəsində ana bətnində döldə olan patologiyaların aşkara çıxarılmasından danışan Ə.Əmiraslanov bunun bioetik və hüquqi cəhətdən bir çox problemlər yaratdığını söyləyib. Donor və surroqat ana məsələlərinə də toxunan natiq bir çox ölkələrdə bunun qadağan edildiyini, bu məsələlərin də hüquq və bioetika müstəvisində həllinin tələb olunduğunu deyib. O, ölkəmizdə orqan transplantasiyasına qoyulan şərtlər barədə məlumat verib, qeyd edib ki, bəzi əməliyyatlar texniki cəhətdən hazır olsa da, məsələnin hüquqi və bioetik tərəfi həll olunmayıb. Molekulyar biologiyanın ən böyük uğuru olan orqan toxumalarının klonlaşdırılmasının heyvanlarda artıq həyata keçirildiyini xatırladan Milli Məclisin komitə sədri bildirib ki, insan orqanlarının klonlaşdırılmasına nail olunarsa, orqan transplantasiyasının donor problemi həll edilər. Bununla belə, klonlaşdırmanın bir çox ölkələrdə qadağan olunduğunu söyləyən Ə.Əmiraslanov bunun da əsas səbəbini məsələnin hüquqi və bioetik tərəfi ilə izah edib.

Texas Universitetinin professoru **Banu Arun** molekulyar genetik test barədə çıxış edərək bildirib ki, bunun vasitəsilə toxumalarda olan xəstəliklərin qarşısı alına bilər. O, əvvəlki vaxtlara nisbətən artıq bu testlərin qiymətinin ucuzlaşdığını söyləyərək deyib ki, genetik test sahəsində sürətli nəticələrə nail olunub.

ABŞ-ın Veyl Kornel Tibb Kollecinin professoru **Madelon Lubin Finkel** «dəyirmi masa»da müzakirə olunan məsələlər və səsləndirilən fikirlərə nəzər salaraq, uşaq və ana ölümləri probleminə toxunub.

«Dəyirmi masa»nın üçüncü plenar iclası **«Müasir tibbin aktual məsələləri üzrə beynəlxalq əməkdaşlığın genişləndirilməsi problemləri»** mövzusuna həsr edilib.

Kimya üzrə Nobel mükafatı laureatı **Aaron Çexanover** çıxışında qeyd edib ki, müasir tibbin uğurları insan ömrünü uzatmağa nail olub. Dərmanlar haqqında danışan alim bildirib ki, tibbin inqilabı dərmanların icad edilməsi ilə başlayıb.

Texas Universiteti MD Anderson Xərçəng Mərkəzinin layihə rəhbəri **Karen Virciniya Frensis** kliniki sınaqlardakı çətinliklərlə bağlı məlumat verib. O, MD Anderson Xərçəng Mərkəzinin fəaliyyəti haqqında danışaraq, həyata keçirdikləri layihələrdən söhbət açıb, tədqiqatlarının statistik göstəricilərini diqqətə çatdırıb.

Rusiya Federasiyasının «Operations CISPRA Health Sciences» təşkilatının icraçı direktoru **Arsen Kubatayev** bildirib ki, beynəlxalq əməkdaşlıqda əsas yeri universitetlər və tibbi klinikalar arasındakı əməkdaşlıq tutur. A.Kubatayev təmsil etdiyi qurumun son dövrlər geniş beynəlxalq fəaliyyəti, əməkdaşlıq etdikləri şirkətlər, getdikcə sayı artan kliniki tədqiqatları haqqında, onların regionda potensialı barədə danışıb.

Tibb elmləri doktoru, Azərbaycanın fəxri professoru **Yevgeni Gelfqat** tibb elmi, təhsil, sağlamlığın qorunması sahəsində beynəlxalq əməkdaşlıq barədə təqdimatla çıxış edib. O vurğulayıb ki, beynəlxalq əməkdaşlıq səhiyyənin və tibb elminin səviyyəsini qaldırmaq üçün əsas vasitələrdən biridir. Xəstəliklərin diaqnostika və müalicəsində sığorta şirkətlərinin maliyyə imkanlarının rolunu qeyd edən natiq bildirib ki, təbabətin inkişafı üçün müasir texnologiyalara və tədqiqatlara azadlıq verməK lazımdır.

Mövzular ətrafında çıxışlardan sonra V Bakı Beynəlxalq Humanitar Forumunun Bəyannaməsi səsə qoyularaq qəbul edilib.

**BAŞ SPONSOR:**
HB Co LTD
*Sağlam gələcək - bizimlə gələcək!*
Azərbaycan, Bakı-Az1116, 7-ci mkr. Abay Kunanbayev küç. Tel.: (+99412) 5633717, 5629499
Faks: (+99412) 5633425 E-mail: hbcoltd@ultel.net Web: www.hb-med.com

«Tibb qəzeti» redaksiyası tel: (012) 596-06-61

# Doğuşayardım xidmətində islahatlar öz bəhrəsini verir

**Azərbaycanın regionlarında icra edilən ginekoloji cərrahiyyə əməliyyatlarının sayı 3 dəfə artıb. Ancaq bu, ümumiyyətlə, ölkəmizdə belə əməliyyatların bu dərəcədə artması demək deyil. Belə ki, son illər bölgələrdə fəaliyyət göstərən tibb müəssisələrinin yüksək səviyyəli təmiri, təchizatı, müasir standartlara uyğun yeni tibb ocaqlarının yaradılması, tibb işçilərinin ixtisas səviyyəsinin yüksəldilməsi, ölkə üzrə tibbi yardımın təşkilinin təkmilləşdirilməsi sayəsində, lazım olan əməliyyatlar artıq yerlərdə icra edilir, regionlardan paytaxta köçürülən ginekoloji xəstələrin sayı gündən-günə azalır. Məsələn, 2016-cı il aprel-sentyabr aylarında 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 39 faiz azalma qeydə alınıb. Əməliyyatların əksəriyyəti qeysəriyyə, uşaqlığın amputasiyası və qanaxma ilə bağlı relaparotomiya olub.**



Bunu Respublika Perinatal Mərkəzində (RPM) keçirilmiş, ölkəmizdə doğuşayardım xidmətinin vəziyyətinə həsr olunan mətbuat konfransında **Səhiyyə Nazirliyinin Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının (SNTTTYS) baş həkimi Mirələm Calalov** bildirib. Toplantıda Səhiyyə Nazirliyinin «Doğuşayardım xidmətinin təkmilləşdirilməsi barədə» 29 mart 2016-cı il tarixli əmri, onun icrası üçün həyata keçirilən tədbirlər, o cümlədən, bu ilin aprelindən etibarən yüksək ixtisaslı mama-ginekoloq, anestezioloq-reanimatoloq və neonatoloqların ölkənin müxtəlif şəhər və rayonlarına ezam olunması, 6 ay ərzində əldə olunan nailiyyətlər, aparılmış təhlillərin nəticələri və sair məsələlərdən danışılıb.

Mirələm Calalov bu il aprelin 1-dən sentyabrın sonuna qədər SNTTTYS-nın Konsultativ bölməsinin doğuşayardım sahəsi ilə bağlı fəaliyyətində müsbət nəticələr əldə olunduğunu da vurğulayıb: «Həmin müddət ərzində stansiyanın konsultativ xidmətinin mütəxəssisləri 46 pasiyentə xidmət göstəriblər. Keçən ilin müvafiq dövründə bu rəqəm 55 olub, bu isə pasiyentlərin sayında 17 faiz azalma deməkdir. Ötən illə müqayisədə bu il çağırışların sayında da 10 faiz azalma qeydə alınıb. Belə ki, ölkənin rayon və şəhər xəstəxanalarına bu il 79, 2015-ci ilin müvafiq dövründə isə 88 dəfə müxtəlif profilli məsləhətçi həkimlər göndərilib».

Tədbirdə **Səhiyyə Nazirliyinin Doğuşayardım komissiyasının sədri, RPM-in direktoru Sevinc Məmmədova** məlumat verib ki, bölgələr kurasiyalar üzrə bölündüyündən qadın məsləhətxanalarının həkimləri 4-6 həftə ərzində mütəmadi olaraq rayon mərkəzlərində, kəndlərdə antenatal qulluğun bütün sahələrində yardım göstəriblər: «Onlar hamilələrin 3 aya qədər kliniki protokollara uyğun müayinələri, risk faktorları olan hamilələrin aşkarlanması, onlara daha mükəmməl müayinələrin və konsultasiyaların həyata keçirilməsi, kənd yerlərində yaşayan hamilələr üçün rayon mərkəzlərindən təhkim olunmuş həkimlərin qrafiklərinin tənzimlənməsi kimi işlərə yaxından köməklik ediblər. Bu müddət ərzində regionlardan Bakıya və yaxud başqa bölgələrə miqrasiya edən hamilələr haqqında elektron poçt vasitəsilə məlumatların verilməsi məsələsi də öz həllini tapıb».

S.Məmmədova qeyd edib ki, artıq regionlarda da hamilələrə Bakı şəhərinin qadın məsləhətxanalarında verilən ev kartlarından təqdim olunub. Bu kartların nəticələrinə görə həkim hamiləyə lazımı müalicə təyin edir. Bunun ən çox risk faktoru daşıyan hamilələr üçün vacibliyini vurğulayan Komissiya sədri bildirib ki, vahid hamilələr registrinin mövcudluğu həkimə müraciət edən hər hansı hamilə barəsində tibbi məlumatın əldə olunması və müvafiq yardımın təşkilində böyük rol oynayır.

Baş həkim, ümumiyyətlə, risk qrupundan olan hamilələrə nəzarətin gücləndirildiyini söyləyib:

*(Ardı səhifə 9-da)*


URSOBILL

Ursodezoksixol turşusu 250 mq



QARACİYƏRİN MAKSİMAL MÜDAFİƏSİ!

- Kəskin və xroniki hepatitlər
- Qaraciyərin toksiki zədələnmələri
- "Qatılaşmış öd" sindromu
- Öd kisəsinin və öd çıxarıcı yolların xolesterin öd daşları




Dozalanması:

1-2 kapsul gündə 1 dəfə

ABC FARMACEUTICI

# Leyla Əliyeva xəstə uşaqlara baş çəkib



**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Xəzər rayonu Şağan qəsəbəsində yerləşən Sağlamlıq imkanları məhdud uşaqlar üçün 1 saylı sosial xidmət müəssisəsində olub. Leyla Əliyeva burada uşaqların reabilitasiyası, asudə vaxtlarını səmərəli keçirmələri üçün yaradılmış şəraitlə tanış olub.**

Fondun vitse-prezidenti sağlamlıq imkanları məhdud uşaqlarla görüşüb, söhbət edib, onlarla birgə vaxt keçirib.

Burada uşaqlar üçün hazırlanmış əyləncə proqramı təqdim edilib, həmçinin onlara Heydər Əliyev Fondunun hədiyyələri verilib.



Leyla Əliyeva daha sonra Nəsimi rayon 1 saylı körpələr evi və Nizami rayonunda yerləşən 1 saylı uşaq evində olub.

Körpələr və uşaq evlərində tərbiyə alan uşaqlar asudə vaxtlarında onlar üçün tərtib olunmuş müxtəlif əyləncələrdə iştirak ediblər.

Qeyd edək ki, Heydər Əliyev Fondu sağlamlıq imkanları məhdud, həmçinin valideyn himayəsindən məhrum olan uşaqları daim diqqət mərkəzində saxlayır, onların hansı qayğıya, mənəvi dəstəyə ehtiyacı olması ilə maraqlanır, təlim-tərbiyələrində, asudə vaxtlarının təşkilində iştirak edir.



# Uşaq poliklinikalarında psixi sağlamlıq bölmələri yaradılıb

**Psixi sağlamlıq xidmətlərini əhali üçün daha əlçatan etmək məqsədilə Azərbaycanın regionlarında yerləşən uşaq poliklinikalarının nəzdində psixi sağlamlıq bölmələri təşkil edilir.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, bu iş səhiyyə naziri Oqtay Şirəliyevin 17 may 2016-cı il tarixli «Respublikanın regionlarında uşaq psixi sağlamlıq xidmətinin təkmilləşdirilməsi barədə» əmrinə əsasən həyata keçirilir.

Artıq Sumqayıt, Gəncə, Mingəçevir, Şəki, Lənkəran, Quba və Şirvanda yerləşən uşaq poliklinikalarının nəzdində psixi sağlamlıq bölmələri yaradılıb.

Hazırda psixi sağlamlıq xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması, yeni müalicə və reabilitasiya üsullarının tətbiqi istiqamətində bir sıra tədbirlər görülür. Belə ki, müxtəlif ixtisaslı mütəxəssislər, o cümlədən həkim-psixiatrlar, psixoloqlar, loqopedlər, müalicəvi bədən tərbiyəsi və əmək terapiyası üzrə təlimatçılar təlimlərə cəlb olunublar.

Təlim iştirakçıları müstəqil fəaliyyət göstərmək, müasir və effektli reabilitasiya tədbirlərini həyata keçirmək, psixoloji müdaxilələrə ehtiyacı olan uşaqlara yardım etmək, onların ailələri ilə işləmək kimi qabiliyyətlərə yiyələnirlər.

# Doğuşayardım xidmətində islahatlar öz bəhrəsini verir

*(Əvvəli 8-ci səhifədə)*

«Bu qrupa daxil olan hamilələr antenatal qulluğun əsas hədəfidir və onlara vaxtında lazımı səviyyədə tibbi xidmət göstərilsə, ana ölümü hallarının sayı əhəmiyyətli dərəcədə azalar. Bu sahədə tibbi xidmətin təkmilləşdirilməsi ilə bağlı mütəmadi işlər aparılır. Şəhərlərdə, regionlarda antenatal və doğuşayardım xidmətinin keyfiyyətinin artırılması istiqamətində davamlı işlər görülür. Məsələn, ölkəmizdə həkimlərin və orta tibb personalının sertifikasiyasının həyata keçirilməsi onların bilik və bacarıqlarının artırılmasına, beləliklə də, göstərdikləri antenatal və doğuşayardım xidmətinin keyfiyyətinin yüksəldilməsinə imkan yaradıb».

Sevinc Məmmədova onu da qeyd edib ki, müxtəlif regionlarda ginekoloji patologiyalar, endemik xəstəliklər fərqlənir. Belə ki, regionlara xas xəstəliklər fərqli olduğundan hamiləlik patologiyaları da müxtəlifdir. Onun sözlərinə görə, qızlar nə qədər gec ailə qurarsa, xroniki xəstəliklər artır və hamiləliyin risk qrupuna daxil olurlar, bu qrupda isə ana ölümlərinin sayı çoxalır.

Komissiya sədri son bir ayda Azərbaycanda iki ana ölümü hadisəsinin baş verdiyini də vurğulayıb: «Hazırda ana ölümlərinin səbəbləri araşdırıldığından, il ərzində baş verən bu hadisələrlə bağlı indi konkret rəqəm demək mümkün deyil. Ümumilikdə isə, son illər ana ölümlərinin sayı azalıb. Hər bir hadisədən sonra ekspertiza ölümün səbəbi ilə bağlı komissiyaya rəy verir. Ana ölümləri ilə bağlı rəqəmlər ilin sonunda açıqlanır. Aparılan təhlillər göstərir ki, Azərbaycanda ana ölümləri əksər halda ekstragenital patologiyalardan – hamilə qadının hamiləliklə bağlı olmayan digər xəstəlikləri səbəbindən baş verir».

**Azərbaycan Tibb Universitetinin Mamalıq və ginekologiya kafedrasının müdiri Elmira Əliyeva** son illər Bakıda reproduktiv dövrdə olan qadınların 30 faizə qədərinin ailə qurmadığını deyib. Onun sözlərinə görə, reproduktiv sağlamlığa təsir edən amillərdən biri də məhz gənclərin gec ailə qurması, müvafiq olaraq, gec hamiləlikdir: «Gənclər vaxtında ailə qurmalı və ailə ilə bağlı düzgün maarifləndirilməlidirlər. İndi qızlar üçün təhsil, karyera inkişafı, öz maddi statusunu qaldırmaq daha əhəmiyyətlidir. 35 yaşda ailə quran qızın isə xroniki xəstəliklərə meyilliyi artır. Ümumiyyətlə, bu qızların sağlam uşaq dünyaya gətirməsi üçün daha çox qeysəriyyə kəsiyi əməliyyatları aparılır».

Qohum nikahına qarşı olduğunu deyən E.Əliyeva Bakı kəndlərində ailələrin hətta 4-5-ci dəfə qohum olduqlarını təəssüflə qeyd edib. Buna qarşı əks-təbliğatın vacibliyini vurğulayıb.



Toplantıda **Səhiyyə Nazirliyinin Hamiləlik, doğuş və zahılıq dövrlərində ölüm, mamalıq ağırlaşmaları hallarının təhlili üzrə Komissiyasının sədri Leyla Rzaquliyeva** çıxış edərək, bütün hamilə qadınlara hamiləliyin ilk 3 ayında yaşadıqları ərazinin qadın məsləhətxanalarında qeydiyyata düşmələrini tövsiyə edib. Bildirib ki, bəzən qadınlar rəsmi nikahlarının, yaxud yaşadıqları ərazidə pasport qeydiyyatının olmamasını əsas gətirərək, qeydiyyata durmaqdan yayınırlar: «Bəziləri isə öz şəxsi həkimlərinə üz tutur, məsləhətxanaya çox gec müraciət edirlər. Bu da bəzən hamiləliyin fəsadlaşmasına gətirib çıxarır. Ona görə qadınlara hamilə olduqlarını bilən kimi, nikahın olub-olmamasından asılı olmayaraq, şəxsiyyət vəsiqəsi ilə yaşadıqları ərazinin qadın məsləhətxanasına müraciət etməyi məsləhət görürük».

Leyla Rzaquliyeva onu da vurğulayıb ki, ölkəmizin müxtəlif regionları arasında ana sağlamlığı, ana ölümləri və ağırlaşmaları ilə bağlı ciddi fərq yoxdur: «Sadəcə, regionlar öz adət-ənənələrinə görə fərqlənir ki, bu da gənclərin ailə qurmasına öz təsirini göstərir».

Komissiya sədri qeyd edib ki, ağır vəziyyətlərdə olan xəstələr, risk qrupundakı hamilələr daim diqqət mərkəzində olmalıdır: «Hamilənin vaxtında müayinə edilməsi nəticəsində bir sıra xəstəliklərin qarşısını almaq olar. Hamiləliklə əlaqədar olmayan böyük bir qrup ekstragenetal xəstəliklər (ürək, böyrək, endokrin xəstəliklər) hamiləlik zamanı fəsadlaşır və ağırlaşmalara səbəb olur. Bunun qarşısını almaq üçün antenatal xidmətdə çalışan həkimlərin mühüm rolu var. Biz profilaktika yolu seçməli, hamiləliyin fəsadlaşmasının qarşısını almalı, bu istiqamətdə aktiv işləməliyik».

Son illərdə Azərbaycanda ana ölümlərinin sayının azaldığını deyən Leyla Rzaquliyevanın sözlərinə görə, bu da dövlətin, Səhiyyə Nazirliyinin problemin aradan qaldırılması istiqamətində gördüyü işlərin nəticəsidir. Komissiya sədri deyib ki, ağır xəstələrə yardım etmək məqsədilə mütəxəssislər aprel ayından başlayaraq, növbətçilik əsasında, 11 rayonda yerləşən regional perinatal mərkəzlərdə olur, ağır və risk qrupuna daxil xəstələrə nəzarət edirlər.

**Elmi Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun elmi katibi Leyla Məmmədova** isə cənub regionunda bu il aprelin 4-dən sentyabrın sonuna qədər 9 030 doğuş olduğunu deyib. Onun sözlərinə görə, bu müddət ərzində həmin bölgədə ana ölümü qeydə alınmayıb.

Tədbirin sonunda jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

# Analitik Ekspertiza Mərkəzi fəaliyyətində beynəlxalq standartları tətbiq edir

**«Bu ildən Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi (AEM) dünya praktikasında əczaçılıq istehsalının sertifikasiyasının əsasını təşkil edən GMP təftişini həyata keçirməyə başlayıb. Belə ki, son dörd ay ərzində müxtəlif ölkələrin dərman istehsalı ilə məşğul olan 8 şirkətinin GMP tələblərinə uyğun yoxlaması aparılıb». Bu haqda bizə AEM-in keyfiyyət üzrə meneceri Rauf Əfəndiyev məlumat verdi.**

Müsahibimiz bildirdi ki, GMP (Good Manufacturing Practice) məhsulların lazımi səviyyədə istehsalı praktikası deməkdir. Bu, keyfiyyətə təminatın əsas tərkib hissəsi olub, məhsulun daim müvafiq standartlara uyğun istehsal edildiyinə, eyni zamanda, öz təyinatına, qeydiyyat sənədlərinə, bu məhsula dair spesifikasiyaya, eləcə də marketinq, lisenziyalaşdırma orqanlarının tələblərinə uyğun olduğuna zəmanət verən sistemdir: «Müasir dövrdə dərman vasitələrinin istehsal prosesinin yüksək səviyyədə təşkili məhz GMP tələbləri əsasında aparılır. Bu tələblər dərman vasitələri istehsalının bütün mərhələlərini tənzimləyir».

R.Əfəndiyev GMP standartının 1963-cü ildə ABŞ-da meydana çıxdığını, bu sahədə ilk beynəlxalq sənədin isə 1968-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı mütəxəssisləri tərəfindən hazırlandığını dedi. 1970-ci illərdən etibarən GMP konsepsiyasından əksər ölkələrin yararlandığını vurğulayan müsahibimiz hazırda bu tələblərin dərman vasitələri, tibbi avadanlıq, qida məhsulları, qida əlavələri, kosmetik vasitələrin istehsalında tətbiq edildiyini bildirdi: «Ümumiyyətlə, dərman vasitələri istehsalçılarının yoxlanılması müasir dövrdə dünyada çox geniş tətbiq edilən təcrübədir. Ölkəyə idxal edilən dərman vasitələrinin daim yüksək keyfiyyətə, təhlükəsizliyə və effektivliyə malik olmasını təmin etmək üçün bəzi hallarda istehsalçı şirkətlərin təftişinə ehtiyac yaranır. Məhz GMP yoxlamalar istehsalçının istehsalat prosesini hansı səviyyədə təşkil etdiyini müəyyənləşdirməyə, istehsalçının potensialını aşkarlamağa imkan verir. GMP-nin əczaçılıq tələbləri keyfiyyət sistemi, işçi heyəti, sahələr və avadanlıqlar, sənədləşmənin sistemli və sadə olması, istehsalat, keyfiyyətin yoxlanılması, müqavilələr əsasında iş, şikayətlərə reaksiyalar və məhsulların effektiv geri yığılması, daxili təftişdən ibarətdir».

Keyfiyyət üzrə menecer diqqətə çatdırdı ki, ölkəmizdə Prezident İlham Əliyevin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasının 8-ci hissəsinə əsasən, Səhiyyə Nazirliyinin fəaliyyət istiqamətləri müəyyənləşdirilib. Buna uyğun olaraq, prioritet inkişaf sahələri üzrə tədbirlərin həyata keçirilməsi məqsədilə «Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 2014-2020-ci illər üzrə strateji planı" təsdiqlənib. O qeyd etdi ki, əhalinin keyfiyyətli, təhlükəsiz və effektiv dərman vasitələri ilə və tibbi təyinatlı mallarla təmin edilməsi, eləcə də dərman vasitələri ilə bağlı bütün mərhələlərdə (tədqiqat, hazırlanma, yoxlanma, istehsal, qeydiyyat, satış, istifadə və s.) beynəlxalq standartlara keçilməsi həmin sənəddə yer alan aktual məsələlərdəndir: «Onu da vurğulayım ki, GMP sahəsində bir sıra beynəlxalq (Ümumdünya Səhiyyə Təşkilatı – WHO GMP), regional (Avropa Birliyi – EU GMP, Cənub –Şərqi Asiya Ölkələri Birliyi – ASEAN GMP və s.) və milli tələblər mövcuddur. Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi tərəfindən dərman vasitələrinin istehsalçılarının qiymətləndirilməsi zamanı Azərbaycan Respublikası Konstitusiyası, ölkə rəhbərinin «Beynəlxalq (regional) və dövlətlərarası standartların, normaların, qaydaların və tövsiyələrin Azərbaycan Respublikası ərazisində tanınması və tətbiq edilməsi Qaydalarının təsdiq edilməsi» barədə Fərmanı əsas tutulur, ÜST-nin GMP standartına dair tələb və tövsiyələrinə istinad edilir. Bu sahədə milli tələblərin işlənib hazırlanması çox mühüm məsələlərdən biridir və artıq bu istiqamətdə müəyyən tədbirlər görülməyə başlanıb».

R.Əfəndiyev sonda əczaçılıq sektorunun yenidənqurulması və inkişafı istiqamətində qarşıda duran əsas məqsədlərə nail olmaq üçün AEM tərəfindən aparılan GMP yoxlamalarının planlı qaydada həyata keçirildiyini və gələcəkdə bu sahədə işlərin təkmilləşdirilməsinin nəzərdə tutulduğunu dedi. Yoxlamaları həyata keçirən mütəxəssislərin peşəkarlıq səviyyəsinin daha da artırıldığını və bu sahəyə yeni kadrların cəlb olunduğunu söylədi.

**Ü.FƏRZƏLİYEVA**

# Dərmanların içlik vərəqəsi Azərbaycan dilində olmalıdır

**Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi (AEM) ölkəmizdə dərmanların istifadə təlimatının Azərbaycan dilində olması haqqında aidiyyətli müəssisələrə xəbərdarlıq edib.**

Bu haqda bizə AEM-in mütəxəssisi Ulduz Eyvazova məlumat verdi. Bildirdi ki, AEM yalnız dərman təminatını deyil, əhalinin dərman vasitələrindən düzgün istifadəsini təşkil etmək üçün də lazımi addımlar atır: «Bu mühüm işlər sırasında ölkə ərazisinə idxal olunan dərman vasitələrinin istifadə təlimatının (içlik vərəqəsi) Azərbaycan dilində olması tələbi də var. Mərkəz dərman vasitələri ilə davranışın hüquqi və təşkilati əsaslarının müəyyən edilməsi və bu sahədə münasibətlərin tənzimlənməsində Azərbaycan Respublikasının «Dərman vasitələri haqqında» Qanununa əsaslanır. Həmin Qanunda isə istifadə təlimatının Azərbaycan dilində olması zəruri tələb kimi öz əksini tapır».

İçlik vərəqinin istehlakçının dərman vasitəsindən düzgün istifadə etməsi üçün zəruri məlumatları özündə əks etdirən mühüm vasitə olduğunu vurğulayan müsahibimiz qeyd etdi ki, dərmandan düzgün istifadə onun müalicəvi effektini təmin edən əsas şərtlərdəndir: «İstifadə təlimatı dərman vasitələrinin əlavə təsirlərinin izlənilməsi, farmakonəzarətin həyata keçirilməsi baxımından da əhəmiyyətli rola malikdir. Belə ki, istehlakçılar üçün nəzərdə tutulan istifadə təlimatında dərman vasitəsinin farmakoloji xüsusiyyətləri, istifadəsinə göstəriş və əks göstərişlər, digər dərman vasitələri ilə qarşılıqlı təsiri, hamiləlik və laktasiya dövründə istifadəsi və digər bu kimi məlumatlar öz əksini tapır. Bununla yanaşı, orada dərman vasitəsinin istifadə qaydası, əlavə təsirləri, doza həddinin aşılması zamanı yaranan simptomlar və onların müalicəsi, dərman vasitəsinin saxlanması qaydaları (temperatur rejimi və və digər şərtlər), yararlılıq müddəti, aptekdən buraxılma şərti (resept əsasında və ya reseptsiz) kimi dərman vasitəsi ilə düzgün davranış qaydalarını müəyyən edən məlumatlar yer alır. Bütün bunlar çox vacib informasiyadır və hər kəs üçün başa düşülən dildə olmalıdır. Buna görə də ölkəmizdə dərmanların istifadə təlimatlarının Azərbaycan dilində olması vətəndaşların konstitusion hüququdur».

Ulduz Eyvazova eyni zamanda vurğuladı ki, içlik vərəqləri anlaşılan və sadə dildə yazılmalıdır: «Bunu nəzərə alaraq, AEM əlaqədar dövlət qurumlarına, əczaçılıq topdan və pərakəndə satış müəssisələrinə, dərman vasitələri istehsalçılarının nümayəndəliklərinə dəfələrlə xəbərdarlıq edib. Bu məqsədlə həm müəyyən toplantılar keçirilib, həm xəbərdarlıq Mərkəzin rəsmi saytı və facebook səhifəsində yerləşdirilib, həm də ayrı-ayrılıqda bir çox topdansatış əczaçılıq müəssisəsi və dərman vasitələri istehsalçılarının rəsmi nümayəndəliklərinə göndərilib».

# Ümumdünya Psixi Sağlamlıq günü

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, hazırda dünyada 450 milyondan çox insan psixi xəstəliklərdən əziyyət çəkir. Bu qurumun hesablamalarına görə, fövqəladə hallarda psixi pozuntu göstəriciləri, bir qayda olaraq, 2 dəfə artır. Psixi pozuntular infeksion və qeyri-infeksion xəstəliklərin inkişafının risk amillərinə aid edilir.**

Dünyada və ölkəmizdə psixi sağlamlıqla bağlı vəziyyət haqqında Səhiyyə Nazirliyinin Psixi Sağlamlıq Mərkəzində keçirilmiş, 10 oktyabr – Ümumdünya Psixi Sağlamlıq gününə həsr olunmuş konfransda söhbət açılıb. Tədbirdə psixi sağlamlıq sahəsinin aparıcı mütəxəssisləri, ÜST-nin ölkəmizdəki ofisinin, Fövqəladə Hallar və Ədliyyə nazirliklərinin nümayəndələri iştirak ediblər.

Konfrans ÜST nümayəndəsinin Psixi Sağlamlıq gününə dair müraciəti ilə başlayıb. Tədbirdə qeyd edilib ki, 1992-ci ildən Ümumdünya Psixi Sağlamlıq Federasiyasının təşəbbüsü ilə təsis olunan və BMT tərəfindən beynəlxalq günlər siyahısına daxil edilmiş Ümumdünya Psixi Sağlamlıq günü bu il "İlkin psixoloji yardım" mövzusuna həsr olunub. Bu günün qeyd edilməsində məqsəd psixi sağlamlıq probleminə yanaşmada dünya əhalisinin məlumatlılıq səviyyəsini yüksəltməkdir. Həmin gün psixi sağlamlığın möhkəmləndirilməsi istiqamətində qlobal səviyyədə daha çox açıq müzakirələrə imkan yaradır. Eləcə də psixoloji xəstəliklər, psixi pozuntuların profilaktikası və müalicə xidmətlərinə sərmayə yatırılmasını stimullaşdırmaq üçün müəyyən tədbirlər görülür.




Konfrans iştirakçıları ölkəmizdə ilkin və ixtisaslı psixoloji yardımla bağlı görülən tədbirlərdən danışıblar. Bildirilib ki, psixi pozuntudan əziyyət çəkən vətəndaşların hüquq və azadlıqlarının qorunması bu gün Azərbaycanda da prioritetdir. Hazırda ölkəmizdə psixiatrik yardım 2001-ci ildə qəbul olunmuş «Psixiatrik yardım haqqında» Qanunla tənzimlənir. İctimai səhiyyənin vacib vəzifələrindən biri olan psixi sağlamlığın qorunması istiqamətində ölkəmizdə davamlı olaraq müxtəlif tədbirlər keçirilir. Vurğulanıb ki, 2016-cı ildən etibarən Səhiyyə Nazirliyi tərəfindən iri tibb müəssisələrində psixoloq ştatları yaradılıb.

Maraqlı diskussiya və çıxışlarla yadda qalan tədbirdə Rüstəm Salayevin ÜST və Lissabon Universitetinin psixi sağlamlıq siyasəti və xidməti üzrə birgə proqramı haqqında, Fuad İsmayılovun ilkin psixoloji yardımın RAPİD modeli barədə, Aygün Sultanovanın Səhiyyə Nazirliyi tərəfindən təsdiq olunmuş Psixoloji müayinəyə dair metodik tövsiyələr haqqında məruzələri dinlənilib.

Sonda konfrans iştirakçıları psixi sağlamlıq sahəsində ilkin psixoloji yardımın perspektivlərini müzakirə ediblər.

# Tibb elmi üzrə strategiya hazırlanacaq

**Səhiyyə Nazirliyinin Elmi Şurası ilə Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Tibb üzrə Əlaqələndirmə Şurasının birgə toplantısı keçirilib. Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Klinikasında baş tutan toplantıda «Azərbaycan elmi – 2030: yol xəritəsi», elektron səhiyyə üzrə işçi qrupunun yaradılması, elmi hesabatların forması, elmi tədqiqatların qeydiyyatı ilə bağlı məsələlər müzakirə olunub.**

Tədbiri giriş sözü ilə açan AMEA-nın müxbir üzvü, professor Nuru Bayramov məlumat verib ki, bu günlərdə Prezident Administrasiyasında, Elmlər Akademiyasında 2030-cu ilədək dövrdə Azərbaycan elminin əsas prioritetləri və istiqamətlərinin müəyyənləşdirilməsi barədə qərar qəbul olunub. N.Bayramov bildirib ki, digər bütün elm sahələri üzrə olduğu kimi, tibb elmi üzrə də elmi strategiya hazırlanıb təqdim edilməlidir: «Daha sonra bu strategiya Akademiyada və Nazirlər Kabinetində müzakirə olunacaq, Prezident Administrasiyasında təsdiq ediləcək və 2030-cu ilə qədərki strategiyamız bunun üzərində qurulacaq».

Toplantı iştirakçıları tibb elminin prioritet istiqamətləri, qarşıda duran hədəflər, qeyri-infeksion xəstəliklər və gündəlikdə olan müəyyən məsələlərlə bağlı öz fikirlərini səsləndiriblər.

# Tütündən imtina üzrə pilot kabinet və «qaynar xətt» yaradılır

**Noyabrın 1-dən etibarən Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) ambulator şöbəsinin nəzdində əhali üçün tütündən imtina üzrə tibbi məsləhət kabineti və xüsusi «qaynar xətt» fəaliyyətə başlayacaq.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, burada tütündən asılılığı olan və ondan imtina etmək istəyən şəxslər professional tibbi yardım və psixoloji məsləhətlər alacaqlar.

Layihə «Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiya»nın müvafiq tələblərinə uyğun olaraq həyata keçirilir.

Pilot kabinetin işini lazımi səviyyədə qurmaq məqsədilə İSİM-in nümayəndələri bu yaxınlarda Moskvada «Tütündən istifadənin dayandırılmasına yardım göstərilməsi problemləri» mövzusunda seminarda iştirak ediblər. Səfərdə məqsəd Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa Regionunda, o cümlədən Rusiya Federasiyasında tütündən imtinaya dəstək sahəsində əldə olunmuş beynəlxalq təcrübənin Azərbaycana uyğun modelini yeni açılacaq kabinetin fəaliyyətində tətbiq etməkdir.



Hazırda İSİM-in ambulator şöbəsində pilot layihə üçün müvafiq kabinet yaradılıb, xüsusi telefon xətti ayrılıb. İki ay davam edəcək pilot faza ərzində burada çalışacaq mütəxəssislər tütündən istifadənin dayandırılması və asılılığın müalicəsinə dair metodik təlimatlar əsasında təlim keçiblər.

İSİM tütündən istifadənin dayandırılması və asılılığın aradan qaldırılması sahəsində milli mütəxəssis potensialının gücləndirilməsinə və müvafiq tibbi-konsultativ xidmətlərin təşkilinə yardım göstərəcək. Pilot layihənin müddəti başa çatdıqdan sonra görülmüş işlər qiymətləndiriləcək, gələcəkdə tütündən imtina kabineti və «qaynar xətt»in davamlı çalışması və işinin səmərəli, effektiv aparılması üçün zəruri tədbirlər nəzərdən keçiriləcək.

Xatırladaq ki, Azərbaycan Respublikası hələ 2005-ci ildə «Tütünə qarşı mübarizə haqqında» ÜST-nin Çərçivə Konvensiyasını ratifikasiya edib. Həmin Konvensiyanın 14-cü maddəsinə əsasən, hər bir ölkə tütündən istifadənin dayandırılmasına və tütündən asılılığın adekvat müalicəsinin təmin edilməsinə kömək üçün səmərəli tədbirlər görməli, habelə tibbi-sanitariya yardımı müəssisələrində və reabilitasiya mərkəzlərində tütündən asılılığın diaqnostikası, profilaktikası, müalicəsi və məsləhətlərin verilməsi üzrə proqramlar hazırlamalı və həyata keçirməlidir.



# Həkimlərin sertifikasiyasının təkmilləşdirilməsi davam edir

**Səhiyyə Nazirliyinin Sertifikasiya Komissiyasında əhaliyə tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılmasına və peşəkar kadrların hazırlanmasına istiqamətlənən tədbirlərə həsr olunmuş mətbuat konfransı keçirilib.**

Toplantıda son illər ölkəmizdə səhiyyə sahəsində həyata keçirilən islahatlardan danışılıb. Qeyd olunub ki, təbabətin inkişafı, tibb müəssisələrinin müasir avadanlıqla təchiz edilməsi bu avadanlıqla işləyən tibb heyətinin bilik və təcrübə səviyyəsinə daha yüksək tələblər qoyur.

Tədbirdə məlumat verilib ki, Azərbaycanda həkimlərin sertifikasiyası prosesi 2011-ci ilin yanvar ayından başlayıb və icbari qaydada aparılır. Sertifikasiyadan keçən mütəxəssislər və orta tibb işçiləri 5 il ərzində tibbi praktika ilə məşğul olmaq hüququ qazanırlar. Vurğulanıb ki, bu prosesdə heç bir yaş senzi, habelə tibb təhsilinin alındığı ölkəyə tələblər yoxdur. Xarici ölkənin ali tibb məktəbinin məzunu olan vətəndaşların diplomları sertifikasiyadan əvvəl Təhsil Nazirliyinin nostrifikasiyasından keçməlidir. Sonra onlar sertifikat almaq üçün imtahana buraxılırlar. Test bazası hər il 20 faiz yenilənir.

Sertifikasiya prosesini daha da təkmilləşdirmək və şəffaflığını təmin etmək üçün Nazirlər Kabineti 2015-ci il 1 dekabr tarixli Qərarı ilə "Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyası Qaydası"na sənəd qəbulu və imtahan proseduru ilə bağlı müəyyən dəyişikliklər edib. Sertifikasiyadan keçməyən şəxslərin tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olması qadağandır.

Qeyd olunub ki, imtahanlar yalnız Azərbaycan dilində aparılır.

# İcbari tibbi sığorta ilə bağlı səyyar kurslar təşkil olunub

**Səhiyyə Nazirliyinin göstərişi ilə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu (ADHTİ) Yevlax rayonunda və Mingəçevir şəhərində icbari tibbi sığortanın tətbiqi ilə bağlı yerli mütəxəssislər üçün üçhəftəlik səyyar kurslar təşkil edib.**

ADHTİ-nin Ailə təbabəti kafedrasının keçirdiyi təlimlərə digər kafedralardan da əməkdaşlar cəlb olunub. Proqrama uyğun olaraq onlar icbari tibbi sığortanın tətbiqi üçün pilot ərazilər olaraq seçilən bölgələrdə mühazirələr oxuyur, praktiki məşğələlər aparırlar. Təlimin sonunda imtahandan müvəffəqiyyətlə keçmiş dinləyicilərə müvafiq sertifikatlar veriləcək.

Qeyd edək ki, Azərbaycanda icbari tibbi sığortaya hazırlıq işləri çərçivəsində Mingəçevir şəhərində və Yevlax rayonunda pilot layihənin tətbiqi əhalini və tibb müəssisələrini icbari tibbi sığorta sisteminə keçidə hazırlamaq, tibbi xidmətin maliyyələşməsində yeni mexanizmlərin tətbiqini sınaqdan keçirmək məqsədi daşıyır.

# Kliniki Tibbi Mərkəz 9 ayın hesabatını verdi

**Bu ilin yanvar-sentyabr ayları ərzində Kliniki Tibbi Mərkəzdə (KTM) 18 686 xəstə stasionar müalicə alıb.**

Bu barədə səhiyyə ocağının 9 aylıq fəaliyyətinin yekunlarına həsr olunmuş tədbirdə məlumat verilib.

